Xalqın qəzeti!

# Xalq qəzeti

№ 274 (30390) 15 dekabr 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

# Dostluq və qardaşlığın dünya örnəyi

## Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin xarici işlər nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanı qəbul edib.**

Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı.

Dövlət başçıları və digər səviyyələrdə qarşılıqlı səfərlərin və təmasların əməkdaşlığımızın daha da möhkəmlənməsi işinə töhfə verdiyi bildirildi.

Söhbət zamanı əlaqələrimizin bundan sonra da bütün istiqamətlərdə daha da möhkəmlənəcəyinə əminlik ifadə olundu, əməkdaşlığımızın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ilə bağlı fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

# Bakı sülhə səs verir! Bəs İrəvan?

*Ermənistanla sülh sazişinin imzalanması yaxın 2 ay ərzində reallaşa bilər*



**Bu qənaətə gəlməyə ən çox əsas verən Ermənistanın rəsmi və qeyri-qeyri düşərgəsindən son günlər verilən nikbin açıqlamalar, ayrı-ayrı ekspertlərin, sabiq səlahiyyət sahiblərinin dilindən səslənən bəyanatlardır. Bakı və İrəvan arasında vasitəçilərsiz sülh dialoqunun tərəfdarlarının getdikcə artdığının hiss olunduğu Ermənistan cəmiyyəti artıq barışığa hazır olduğunu nümayiş etdirməkdədir. Bu, danışıqların məhz indiki mərhələsində arzuedilən müsbət tendensiyadır.**

“Ermənistan ilin sonuna qədər Azərbaycanla sülh müqaviləsini imzalamağa hazırdır”. Bunu iqtidardakı “Vətəndaş sazişi” partiyasının parlamentdəki təmsilçisi Sarkis Xandanyan əminliklə dilə gətirib. Onun sözlərinə görə, rəsmi İrəvanın bugünədək toxunduğu və qaldırdığı, Bakı ilə razılaşdırdığı bütün fundamental məsələlər öz təsdiqini sülh müqaviləsində də taparsa, bu zaman sazişin imzalanması, sadəcə, texniki xarakter daşıyacaq: “Əgər İrəvanın sonuncu dəfə Bakıya göndərdiyi sülh sazişi ilə bağlı təklifləri qəbul edilsə, razılaşmanın bu ilin sonunda imzalanması mümkündür”.

*(ardı 4-cü səhifədə)*

# Sülhün 2024-cü il ümidi: Vaşinqtonda Cənubi Qafqaz müzakirəsinə doğru

*Azərbaycan–Ermənistan münasibətləri və normallaşmanın səciyyəvi məqamları*

**Azərbaycanın və Ermənistanın Xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyan arasında növbəti görüşün 2024-cü ilin yanvarında Vaşinqtonda keçirilməsi nəzərdə tutulur. Məlumat Ermənistanın xüsusi tapşırıqlar üzrə səfiri Edmun Marukyana istinadən yayılıb. Marukyanın ölkənin İctimai Televiziyasında daha nələrdən söz açdığını diqqətə çatdıracağıq. İlk növbədə isə bildirək ki, onun verdiyi məlumat başa çatmaqda olan 2023-cü ildə yekun sülh razılaşmasının imzalanmayacağını qətiləşdirir. Halbuki, prosesin reallaşacağına ümidlər böyük idi.**



E.Marukyan deyib ki, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi hələ imzalanmağa hazır deyil, yekun layihə yoxdur, lakin xarici işlər nazirlərinin yanvarda gözlənilən görüşündə, nəhayət, müqavilənin mətni razılaşdırıla bilər. 32 hərbi əsirin ölkəsinə təhvil verilməsini Bakı-İrəvan sülh razılaşması yolunda mühüm addım kimi qiymətləndirən səfirin üzərində dayandığı ən maraqlı məqam onun 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatda əksini tapan şərtlərin artıq etibarını itirdiyini vurğulamasıdır. Marukyanın nəyə görə bu qənaətə gəldiyi aydın olmasa da, deyimin Rusiyanı vasitəçilik missiyasından uzaq tutmaq niyyətinə hesablandığı aydındır. Ancaq səfirin diqqət yetirdiyi başqa bir xüsus da var: “Səhv təəssürat yaranıb ki, danışıqlar ABŞ-da, Brüsseldə və ya Moskvada gedirsə, deməli, onlar qarantdır. Bu, belə deyil. Zəmanət mexanizmi sənədləşdirilməli, tərəflər arasında mübahisə yaranarsa, orada bütün şərtlər əskini tapmalıdır”.

Göründüyü kimi, E.Marukyan vəziyyəti, bəlkə özü də fərqinə varmadan, mürəkkəbləşdirmək yolu tutur. ABŞ, Avropa İttifaqı və Rusiya sülh təminatçısı deyilsə, o zaman zəmanət verən kimdir, hansı tərəfdir? Yəni, istər-istəməz, bu sual meydana çıxır. Amma mümkündür ki, Marukyan sözügedən fikri bilərəkdən gündəmə gətirir. Çünki onun söylədiklərini dolayısıyla Ermənistanın XİN rəhbəri A.Mirzoyan da təsdiqləməkdədir.

*(ardı 4-cü səhifədə)*

## Azərbaycanın “dəmir məntiqi” və Paşinyanın “virtual dəmir yolu”



Səhifə ⇨ 3

## Şimali Avropadan Ukraynaya növbəti dəstək

Səhifə ⇨ 11

## Yağ bazarının ağı çıxan oyunları

Səhifə ⇨ 9

## Qızılcaya yoluxmadan necə qorunaq?



Səhifə ⇨ 8

## “Qarabağ”ın Avroliqa yürüşü




Səhifə ⇨ 12

## Neft strategiyası iqtisadi tərəqqinin generatorudur



Səhifə ⇨ 7

# Milli Məclis sədrinin mərakeşli həmkarı ilə görüşü



**Dekabrın 14-də Milli Məclisin sədri Sahibə Qafarova Mərakeş Krallığına rəsmi səfəri çərçivəsində bu ölkə Parlamentinin Nümayəndələr Palatasının sədri Raşid Talbi El Alami ilə görüşüb.**

Azərbaycanın qardaş ölkə olduğunu deyən Raşid Talbi El Alami ölkələrimiz arasında əlaqələrin genişlənməsinin vacibliyini qeyd edib. O, ölkələrimiz arasında iqtisadi əməkdaşlığın, işgüzar dairələr arasında əlaqələrin əhəmiyyətini diqqətə çatdırıb.

Söhbət zamanı Azərbaycan və Mərakeşin bir-birinin suverenliyini və ərazi bütövlüyünü qarşılıqlı şəkildə dəstəklədikləri qeyd olunaraq, beynəlxalq təşkilatlarda birgə fəaliyyətin və həmrəyliyin əhəmiyyəti vurğulanıb. Nümayəndələr Palatasının sədri Azərbaycanı öz suverenliyini bərpa etməsi münasibətilə təbrik edib.

Milli Məclisin sədri Sahibə Qafarova göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirərək, Azərbaycan və Mərakeş arasında siyasi, iqtisadi, humanitar əlaqələrin vacibliyini diqqətə çatdırıb.

Görüşdə ikitərəfli əlaqələrin inkişafında parlamentlər arasında əməkdaşlığın vacib rolu diqqətə çatdırılıb. Spiker Sahibə Qafarova qanunvericilik orqanlarımız arasında əlaqələrin inkişaf etdiyini bildirib. Qeyd olunub ki, hər iki ölkənin parlamentində dostluq qrupları uğurla fəaliyyət göstərir və nümayəndə heyətlərimiz beynəlxalq parlament təşkilatlarında bir-birinə dəstək verirlər.

***

Milli Məclisin sədri Sahibə Qafarova həmin gün Mərakeş Krallığı Parlamentinin Müşavirlər Palatasının sədri Naam Miyara ilə görüşüb.

Söhbət zamanı ölkələrimizin hər zaman bir-birinin ərazi bütövlüyünə qarşılıqlı dəstək verdikləri qeyd olunub. Naam Miyara Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi münasibətilə təbriklərini çatdıraraq deyib ki, bu, Azərbaycanın mütləq haqqı idi.

Səmimi sözlər üçün təşəkkürünü ifadə edən Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycan və Mərakeşin dost, tərəfdaş ölkələr olduğunu bildirib. Spiker Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1994-cü ildə Kasablankaya səfər etdiyini və Mərakeş Kralı mərhum II Həsənlə görüşünü qeyd edib. Onun sözlərinə görə, bu görüş ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafına mühüm təkan verib.



Söhbətdə parlament diplomatiyasının vacibliyi, parlamentlərarası əlaqələrin gücləndirilməsi ilə bağlı ortaq mövqe ifadə edilərək, bu sahədə atıla biləcək addımlar nəzərdən keçirilib.

*XQ*

# Hikmət Hacıyev Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti ilə görüşüb

**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova ilə görüşüb.**



Görüşdə Hikmət Hacıyev Aktotı Raimkulovanı Türk dövlətlərinin başçıları tərəfindən Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti təyin olunması münasibətilə təbrik edib. O, müasir dövrdə Türk xalqlarının hərtərəfli inteqrasiya proseslərinin gücləndirilməsinin önəmindən bəhs edərək, Türk dövlətlərinin mədəni əlaqələrinin inkişafında təşkilatın rolunu vurğulayıb.

Söhbət zamanı Aktotı Raimkulova Qarabağın işğaldan azad olunmasını Azərbaycan və bütövlükdə, Türk dünyası üçün tarixi əhəmiyyətə malik hadisə kimi qiymətləndirib. Təşkilatın rəhbəri bu il Türk dünyasında təntənəli şəkildə qeyd olunan əlamətdar yubileylər sırasında müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu öndər Heydər Əliyevin 100 illiyinə diqqət çəkib.

Aktotı Raimkulova Türk Mədəniyyəti və İrsi Fondunun yaradılmasında və qurulduğu ilk illərdən təşkilatın fəaliyyətinə dəstəyin verilməsində Prezident İlham Əliyevin müstəsna rolunu vurğulayıb. O, fondun Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yenidənqurma və bərpa prosesinə töhfə verilməsinə, eləcə də ölkənin təklifləri əsasında təşkilatın bundan sonrakı fəaliyyətlərində yeni strateji istiqamətlərin həyata keçirilməsinə hazır olduğunu vurğulayıb.

Görüş qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi ilə davam edib.

*XQ*

# Azərbaycan və Türkiyə XİN başçıları hərtərəfli əməkdaşlığı müzakirə ediblər



**Dekabrın 14-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizə rəsmi səfəri çərçivəsində Türkiyənin xarici işlər naziri Hakan Fidanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirlər arasında keçirilən təkbətək görüş daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib.

Geniştərkibli görüşdə iki ölkə arasında ikitərəfli, regional və çoxtərəfli əməkdaşlıq gündəliyinin perspektivləri, bölgədəki cari vəziyyət, habelə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə 2023-cü ildə Azərbaycanda Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinin, qardaş Türkiyədə isə Cümhuriyyətin 100 illik yubileyinin qeyd edilməsi fonunda iki ölkə arasında bütün səviyyələrdə təmaslarımızın daha intensiv, daha məhsuldar xarakter aldığı vurğulanıb.

Çoxşaxəli və zəngin Azərbaycan-Türkiyə strateji müttəfiqlik gündəliyinin cari vəziyyətindən məmnunluq ifadə edilib, siyasi, iqtisadi, ticarət, hərbi, müdafiə sənayesi, enerji təhlükəsizliyi, investisiyalar, humanitar, təhsil, mədəniyyət və digər sahələr üzrə münasibətlərin tarixi yüksəliş mərhələsində olduğu bildirilərək, Şuşa Bəyannaməsinin bu xüsusda mühüm zəmin olduğu qeyd olunub.

Habelə beynəlxalq və regional təşkilatlar çərçivəsində qarşılıqlı faydalı tərəfdaşlığın nümunəvi xarakter daşıdığı diqqətə çatdırılıb. Çoxtərəfli platformalarda, o cümlədən BMT və onun təsisatları, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Mərkəzi Asiya ölkələri ilə üçtərəfli və dördtərəfli formatlar çərçivəsində birgə tədbirlərin intensivliyinin artırılmasının, yeni çoxtərəfli təşəbbüslərin irəli sürülməsinin əhəmiyyətindən söz açılıb.

Nazirlər, həmçinin bölgəmizdə sabitliyin qorunmasında Azərbaycan-Türkiyə müttəfiqlik münasibətlərinin vacib roluna toxunub, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpası ilə bu gün bölgədə tarixi məqamın yarandığını, dövlətlərin suverenliyi və ərazi bütövlüyünün qarşılıqlı tanınmasının və bu kimi təməl prinsiplərə hörmətlə yanaşılmasının bölgədəki davamlı sülh, sabitlik və firavanlığa aparan yeganə yol olduğunu bir daha bəyan ediblər.

Görüşdə nazir Ceyhun Bayramov həmkarını Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, Ermənistanın 30 illik işğalı nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş vətəndaşlarımızın geri qayıdış prosesi, habelə Azərbaycan Ermənistan arasında etimad quruculuğu istiqamətində atılan son addımlar barədə məlumatlandırıb.

Nazir işğaldan azad edilmiş ərazilərdə fəaliyyətlərində Türkiyə tərəfinin aktiv iştirakının yüksək qiymətləndirildiyini vurğulayıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***

Daha sonra nazirlərin iştirakı ilə keçirilmiş mətbuat brifinqində görüşün nəticələrinə dair bəyanatlar səsləndirilib, jurnalistlərin sualları cavablandırılıb.

*XQ*

# Baş prokuror yanında Elmi-Məsləhət Şurasının növbəti iclası




**Dekabrın 14-də Baş prokuror Kamran Əliyevin sədrliyi ilə Baş prokuror yanında Elmi-Məsləhət Şurasının növbəti, sayca doqquzuncu iclası keçirilib.**

İclasda müvafiq dövlət orqanları nümayəndələri, aparıcı ali təhsil müəssisələri, ixtisaslaşmış akademiyaları, elm ocaqlarını təmsil edən görkəmli hüquqşünaslarla yanaşı, ölkəmizdə təcrübə mübadiləsi ilə səfərdə olan Rusiya Federasiyası Baş Prokurorluğunun nümayəndə heyəti də iştirak edib.

Baş prokuror Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, mübariz xalqımızın dəstəyi ilə rəşadətli Ordumuz tərəfindən ölkə suverenliyinin bütün ərazilərimizdə bərpa olunduğunu, üçrəngli bayrağımızın Xankəndi şəhərimizdə dalğalanması ilə əbədiyyət qazandığını, genişmiqyaslı quruculuq və yenidənqurma işlərinin artıq Xankəndi, Ağdərə, Əsgəran və digər yaşayış məntəqələrini əhatə etdiyini iclas iştirakçılarının diqqətinə çatdırıb.

Qeyd olunub ki, Qarabağda mövcud olmuş ali təhsil ənənələrinin davamı olaraq, ölkə başçısı İlham Əliyevin 2023-cü il 28 noyabr tarixli sərəncamı ilə Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında "Qarabağ Universiteti" publik hüquqi şəxs yaradılıb. Əminliklə həmin universitetin bölgənin elm və təhsil mərkəzi olacağı, işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı, aparılan bərpa-quruculuq işləri, eləcə də əmək bazarının tələblərinə uyğun regionda yüksəkixtisaslı kadrların hazırlığına öz layiqli töhfəsini verəcəyi bildirilib.

Daha sonra Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən hazırlanmış "Həkim səhvləri ilə bağlı məlumatlar üzrə istintaq-araşdırma təcrübəsi", "Azərbaycan Respublikasının Prokurorluğunda kriminoloji proqnozlaşdırma metodologiyasına yanaşma" adlı vəsaitlərin təqdimatı həyata keçirilib.

Şura iclasının növbəti hissəsində istintaq-məhkəmə, eləcə də cinayət təqibindən kənar fəaliyyət təcrübəsindən irəli gələn aktual məsələlərin müzakirəsi aparılıb.

İclasın yekun hissəsində müxtəlif hüquqi məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

*XQ*

# Ədliyyə orqanları yeniləşmə yolunda





**Ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə nazirliyin hibrid formada kollegiya iclası keçirilib.**

İclasda növbədənkənar Prezident seçkiləri ilə bağlı ədliyyə orqanlarının vəzifələri müzakirə olunub. Nazir seçkilərin müstəqillik tariximizdə ilk dəfə bütün ölkə ərazisini əhatə etməklə suverenliyimizin bir daha təsbiti olduğunu vurğulayıb.

Bildirib ki, dövlət başçısının rəhbərliyi ilə bərpa və quruculuq işləri aparılaraq həmin ərazilər uğurla dirçəlir, Birinci vitse-prezident Mehriban xanım Əliyeva həyata keçirdiyi mühüm layihələrlə bu prosesə dəyərli töhfələr verir.

Kollegiyada Mərkəzi Seçki Komissiyası tərəfindən müvafiq Təqvim planının qəbul olunduğu diqqətə çatdırılaraq, bununla bağlı ədliyyə orqanlarının üzərinə düşən vəzifələrin vaxtında, dürüst və mütəşəkkil icrasına dair tapşırıqlar verilib, tədbirlər müəyyən edilib.

İclasda həmçinin, ölkəmizdə qanunyaradıcı prosesin müasir çağırışlara uyğun təkmilləşdirilməsi, normativ-hüquqi akt layihələrinin hazırlanması işinin elektron qaydaya – "kağızsız hökumət"ə keçidin sürətləndirilməsi məqsədilə dövlət başçısının fərmanı ilə "Normativ hüquqi aktlar" informasiya sisteminin yaradılması ilə bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunub.

Eyni zamanda ölkə başçısının rəqəmsal cəmiyyətin inkişafı ilə bağlı tapşırıqlarına uyğun olaraq nazirlik tərəfindən innovasiyaların tətbiqinə xüsusi diqqət yetirildiyi qeyd olunub, ədliyyə sahəsində xidmətlərə və informasiyaya əlçatanlığı asanlaşdıran "Vahid ədliyyə portalı"nın təqdimatı keçirilib.

Bildirilib ki, portal vasitəsilə vətəndaşlar fərdi kabinetə sahib olmaqla vahid mənbədə elektron ədliyyə xidmətlərindən bəhrələnə, ona aid məlumat və rəsmi sənədlərlə tanış ola biləcəklər.

Bununla yanaşı, nazirlik tərəfindən Dünya Bankının iştirakı ilə "Elektron məhkəmə" sisteminin yaradılaraq bütün ölkə üzrə tam tətbiqinə toxunulub, onun mühüm tərkib hissəsi olan məhkəmələrin vahid internet portalının yeni versiyası nümayiş etdirilib.

"Vahid məhkəmə portalı"nın məhkəmə sistemi ilə bağlı məlumatlarla tanış olmaq, iddia ərizəsi, şikayət və pretenziyalar vermək, dövlət rüsumlarını ödəmək və digər funksional imkanları xeyli təkmilləşdirilib. İstifadəçilərə keyfiyyətli hüquqi yardımla bağlı vəkil və mediasiya təşkilatlarını seçmək, onlara müraciət etmək, məhkəmə iclasında videokonfrans formatında iştirak etmək və digər yeni əlavə imkanlar yaradılıb, "Mobil məhkəmə" tətbiqinin interaktivliyi artırılıb.

Eyni zamanda ədalət mühakiməsinin həyata keçirilməsində və cinayətkarlıqla mübarizədə mühüm rol oynayan məhkəmə ekspertizası fəaliyyəti ilə bağlı hazırlanmış yeni elektron xidmətin təqdimatı keçirilib. Həmçinin məhkəmə ekspertizası sahəsində yeni qanunvericiliyin tətbiqi ilə bağlı yaradılmış elektron reyestlər nümayiş etdirilib.

Kollegiyada təqdim olunan innovasiyaların tətbiqi ilə bağlı tapşırıqlar verilib, o cümlədən onların mühüm əhəmiyyəti nəzərə alınaraq ictimai təqdimatların keçirilməsinin vacibliyi diqqətə çatdırılıb.

*XQ*

# Azərbaycanın "dəmir məntiqi" və Paşinyanın "virtual dəmir yolu"

## Yaxud Naxçıvana yol və ...Ermənistanın "Dünya kəsişməsi" nağılı



**Ermənistan Azərbaycanla dəmir yolu əlaqəsinin bərpasına hazırdır. Belə bir fikri baş nazir Nikol Paşinyan dənizə çıxışı olmayan ölkələrin İrəvanda keçirilmiş nazirlər görüşünün açılışında səsləndirib. Bu yerdə atalarımız yaxşı deyiblər ki, avazın yaxşı gəlir, oxuduğun Quran olsa.**

Məsələ ondadır ki, ölkəsinin Azərbaycanla dəmir yolu əlaqəsinin bərpasında, hətta əvvəlki dəmir yolu xəttinin yenidən işə salınmasında maraqlı olduğunu vurğulayan erməni hökumət rəhbəri yenə köhnə məsələləri gündəmə gətirib. Onun nələri dediyini diqqətə çatdıracağıq. Hələlik isə Azərbaycan Prezidenti İlham Əliyevin dekabrın 6-da ADA Universitetində keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" mövzusuna həsr olunmuş Beynəlxalq Forumdakı çıxışının bəzi məqamlarına nəzər salaq.

Dövlətimizin başçısı bildirmişdi ki, Azərbaycanın Naxçıvana asan çıxış yolu olmalıdır: "Ermənistanın hazırda iki variantı var. Birincisi, öz xərcləri, yaxud da Avropa fondlarının pulu ilə dərhal 42 kilometrlik məsafədə dəmir yolu çəksinlər. Biz bunu, əslində, onların suveren ərazisi hesab edirik və suverenliklə bağlı bizim şərtimiz yoxdur. Lakin Azərbaycandan Naxçıvana asan çıxış olmalıdır. Bununla bağlı hansısa gömrük yığımı, yoxlamalar, sərhədçilərin prosedurları olmalı deyil. Bu, bizim legitim hüququmuzdur".

Göründüyü kimi, Azərbaycan Prezidenti məsələni qəti şəkildə qoyur – Naxçıvana Azərbaycanın yolu olmalıdır. Bəs, N.Paşinyan nə deyir və nəyə görə onun, obrazlı desək, yaxşı avazla oxuduğu Quran deyil? Daha doğrusu, Nikolun qabartdığını bildirdiyimiz köhnə məsələ nədir?

Nəqliyyat kommunikasiya əlaqələrinin təkcə avtomobil yolu ilə hərəkət və yük daşımaları baxımından deyil, eyni zamanda, regional sabitlik və təhlükəsizlik nöqteyi-nəzərdən əhəmiyyətindən söz açan N.Paşinyan region xalqları arasında iqtisadi əməkdaşlığın genişlənməsi faktoruna diqqət yetirir və mövzunu ən yaxşı bildiyi məsələyə – "Dünya kəsişməsi", yaxud "Dünyanın kəsişməsi" layihəsinə bağlayır. Məlumdur ki, xəstə doğulmuş uşağa bənzəyən bu ideya Azərbaycanın Zəngəzur dəhlizi məntiqinə qarşı çıxmaq üçün ortaya atılıb.

***

İrəvanın kapitulyasiya aktı olan Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatının 9-cu bəndində ölkəmizin digər rayonlarını Naxçıvanla birləşdirən yoldan söhbət açılır. Mövcud xüsusda bildirilir ki, Ermənistan həmin yolun açılmasına təminat verməli, Rusiyanın Federal Təhlükəsizlik Xidməti isə yolda təhlükəsizliyi qorumalıdır. Lakin Paşinyan iqtidarı bu öhdəlikdən yayınır. Əslində, "Dünya kəsişməsi" layihəsi də bunun göstəricisidir. Nikol və komandası bölgədə yeni reallıqlar formalaşdırmağa çalışır. Bu yerdə yenə də Prezident İlham Əliyevin sözügedən forumdakı çıxışına müraciət edək: "Mən Ermənistanın baş nazirindən dəfələrlə soruşmuşam ki, onlar nəyə görə üzərilərinə götürdükləri öhdəlikləri yerinə yetirmirlər? Doqquzuncu maddəyə (2020-ci il 10 noyabr tarixli Bəyanatın – red.) uyğun olaraq, Azərbaycanın qərb hissəsi ilə Naxçıvan arasında əlaqə yaradılmalıdır. Orada, həmçinin qeyd olunub ki, nəzarəti kim təmin edəcək və Paşinyanın özü bunu imzalayıb. İndi isə bu, artıq mümkün deyil. Nə həmin marşrut var, nə də Rusiyanın iştirakı. Yəni, əslində, bu, hüquqi baxımdan artıq qüvvəsini də itirmiş kimidir. Çünki öhdəlik var, amma onlar öhdəliyi yerinə yetirmirlər".

Qeyd edək ki, Azərbaycan Prezidenti Ermənistanın qəbuledilməz yanaşmasından sonra ölkəmizin Naxçıvanla əlaqə yaradılması, Naxçıvan vasitəsilə Türkiyəyə çıxış üçün İran tərəfi ilə keçidin inşasında razılığa gə-




lindiyini vurğulayıb. Mövcud istiqamətdəki detallara toxunan ölkəmizin lideri deyib ki, Ağbənd kəndində (Zəngilan – red.) avtomobil nəqliyyatı üçün körpünün təməlqoyma mərasimi keçirilib, sonra dəmir yolu nəqliyyatı üçün körpü də inşa ediləcək. Bütün bunların fonunda isə itirən tərəf Ermənistan olacaq. Çünki İran ərazisindən Naxçıvana yol nəinki "Azərbaycan ilə Naxçıvan Muxtar Respublikası arasında bağlantını təmin edəcək, əslində, beynəlxalq daşımalar dəhlizinə çevriləcək. Bu o deməkdir ki, Azərbaycan ilə Türkiyə arasında bağlantı yaradılır. Ermənistan özünü bundan məhrum etdi, həmçinin Azərbaycanla bütün digər kommunikasiyaların açılmasından məhrum edir".

Bəli, Prezident İlham Əliyev məsələnin bu kontekstdəki qoyuluşunda da kifayət qədər qətiyyətlidir. Bu cür konkretlik qarşılığında N.Paşinyan dənizə çıxışı olmayan ölkələrin nazirlər görüşündəki nitqində, sanki regionda virtual gəzintiyə çıxırmış kimi danışır. Amma o, fərqində deyil ki, mahiyyətdən uzaqlaşmaq Ermənistanın nəinki dənizə çıxışını məhdudlaşdırır, eyni zamanda, ölkənin hazırkı təcrid durumunu dərinləşdirir, qaçılmaza çevirir.

***

Əlbəttə, Paşinyan "Dünya kəsişməsi"ndən danışmaqla, xaricdəki havadarlarına güvəndiyini göstərir. Nəzərə alaq ki, Azərbaycan liderinin məlum toplantıdakı çıxışı həm də həmin havadarlara mesajdır. Belə ki, Nikol Paşinyanla Brüsseldə müzakirə edilən məsələlərdən birinin Rusiyanın Kalininqradla dəmir yolu xətti təcrübəsinə əsaslandığını vurğulayan dövlətimizin başçısı Ermənistanın bunu istəmədiyini bildirib və aşağıdakı fikirləri diqqətə çatdırıb: "Onlar istəyirlər ki, bizə bu çıxış verilməsin, onun qarşısı alınsın. Onlar gördülər ki, biz bunu etmirik, başladılar şikayətlə çıxış etməyə. Beləliklə, biz Dövlət Departamentinin rəsmisindən müəmmalı bəyanat eşitdik. Birləşmiş Ştatlar qeyd etdi ki, əgər bu, Ermənistandan keçməsə, onlar buna imkan verməyəcəklər. Biz də öz-özümüzə sual veririk, bu nə deməkdir? Çünki biz bunu Ermənistana 3 il idi ki, söyləyirdik. Əgər istəyirsinizsə ki, bu, Ermənistan ərazisindən keçsin, onda bunu erməni dostlarınıza deyin. Siz İranla münasibətlərimizə necə müdaxilə edə bilərsiniz? Yəni, onlar deyirlər ki, biz buna icazə verməyəcəyik, imkan verməyəcəyik. Bu, necə olar bilər? Belə məsuliyyətsiz bəyanatlar bu və ya digər tərəfə yaxşı töhfə vermir. Əfsuslar olsun ki, bu, əslində, sabitliyi, regiondakı proqnozlaşdırmanı daha da çətinləşdirir, o cümlədən bağlantı layihələrinə də təsir göstərir".

Belə qənaətə gəlmək mümkündür ki, Paşinyanın təbirincə desək, Ermənistan dünyanın qovşağında olub şimal-cənub və şərq-qərb oxu boyunca digər ölkələri birləşdirə bilməyəcək. Onun yeganə şansı ölkəmizin şərtlərini qəbul etməkdir. Ancaq nəzərə alsaq ki, artıq İranla Naxçıvana gedən yol xüsusunda razılaşma var, o zaman İrəvanın regional kommunikasiyalardan istifadə imkanlarını əldən buraxdığını söyləmək mümkündür. Bəli, erməni baş nazir yenə "Dünya kəsişməsi"ndən dəm vurursa və inad edirsə, deməli, ölkənin təcriddən xilas şansı yoxdur. Azərbaycan, hər bir halda, Naxçıvana quru yolunu əldə edəcək.

Ermənistan təcriddə qalır ona görə ki, köhnə havalarda olan N.Paşinyan özünün "Dünya kəsişməsi" üçün formul da müəyyənləşdirir. O, hər bir ölkənin dövlət qurumları vasitəsilə öz ərazisində bütün infrastruktur üçün sərhəd, gömrük nəzarəti yaratmasından və bu kommunikasiyaların təhlükəsizliyini təmin etməsindən söz açır. Yəni, bu, o deməkdir ki, Azərbaycanın Naxçıvana haqqında söz açdığımız asan yol məntiqini nəzərə almır. Bu yerdə erməni baş nazirin "Dünyanın kəsişməsi" layihəsinin həm Ermənistanın, həm də Azərbaycanın dənizə çıxış imkanlarını genişləndirəcəyi və multimodal yüklərin daşınması üçün daha geniş imkanlar yaradacağı ilə bağlı bildirdikləri mənasız söz yığınından başqa bir şey olmur.

***

Ancaq yekunda N.Paşinyanın bir mənada haqlı olduğunu vurğulayaq. O, "Dünya kəsişməsi" nağılının ayrı-ayrı səhifələrindəki xoşbəxt gələcək səhnələrinin təsvirindən danışıb belə qənaətə gəlir ki, sadaladıqları Azərbaycanla sülhün yaranması nəticəsində mümkündür. "Əsas məsələ sülhün nə dərəcədə mümkün olması və bunun hansı prinsiplər çərçivəsində baş verməsidir", - deyən erməni baş nazir, çox güman, Naxçıvana yolun Azərbaycan məntiqinə qarşı çıxmaqla, elə sülhün hazırda mühüm əhəmiyyət daşıyan bir vacib komponentini düşünmədiyinin fərqindədir. Ancaq sülhün digər vacib komponenti də var ki, bu barədə Azərbaycan Prezidenti İlham Əliyev "Euronews" televiziyasına noyabrın 23-dəki müsahibəsində söz açmışdı. Dövlətimizin başçısı bildirmişdi ki, vaxtilə "Qarabağ Ermənistandır" deyən N.Paşinyan indi "Qarabağ Azərbaycandır" deyirsə, yanaşma tam olmalıdır: "... lakin hazırda "Qarabağ Azərbaycandır" dedikdə, onlar gərək bunun altında öz imzasını qoysunlar və biz bunu gözləyirik".

Göründüyü kimi, N.Paşinyan, el misalımızda deyildiyi kimi, arxı keçməmiş "hop" eləməklə məşğuldur. Onun Azərbaycanla dəmir yolu əlaqəsinin bərpasından danışması yalnız görüntü xarakteri daşımaqdadır. Nikolun "Cənubi Qafqaz platformasında xalqların parlaq, xoşbəxt gələcəyi"ni "Dünya kəsişməsi" ilə əlaqələndirməsi və yekunda bütün bunların baş verməsinin Azərbaycanla sülhdən asılı olduğunu vurğulaması, ölkəmizin mövqeyini heçə saymaqdır. Erməni baş nazirin məntiqi həm də dolayısı ilə Azərbaycanı sülhün olmamasının səbəbkarı kimi təqdim etmək cəhdidir. Beləliklə Ermənistan rəhbərliyi özünü mütərəqqi göstərməklə, reallıqlardan uzaqlaşmaq xəttini seçir. N.Paşinyanın yanaşması isə yalnız bitlə bağlı mövzunu mənimsəyən tələbənin imtahanda itlə, pişiklə və nəhayət balıqla bağlı sualları bitin üzərinə gətirmək cəhdindən başqa bir şey deyil.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Möhkəm sülhün zəmanəti olmalıdır

**Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin sülh müqaviləsindən gözləntiləri ilə bağlı çıxışında qeyd edib: "Azərbaycana nə lazımdır? Ermənistanda heç bir revanşizm cəhdlərinin olmayacağı ilə bağlı qəti şəkildə, təsdiqlənmiş zəmanət lazımdır. Bu, bizə niyə lazımdır? Çünki biz Ermənistanda nə baş verdiyini bilirik və həmçinin bilirik ki, Ermənistanın bəzi Avropa paytaxtlarında çox pis məsləhətçiləri var".**



Beləliklə, Prezident İlham Əliyev müharibə başa çatdıqdan sonra ötən üç il ərzində gündəmdə olan bir mövzuya aydınlıq gətirib. Bu mövzu gələcəkdə daxili işlərə qarışmamaq öhdəliyi şəklində sülh müqaviləsinin prinsiplərindən birində öz əksini tapıb. Lakin bütün danışıqlar prosesi boyu erməni tərəfi sözdə sülh müqaviləsinin prinsiplərini qəbul edərək, faktiki olaraq, Azərbaycanın daxili işlərinə qarışıb - Qarabağ ermənilərini maliyyələşdirib, öz silahlı qüvvələrinin qalıqlarını Qarabağdan çıxarmaqdan imtina edib, həmçinin, Qarabağ məsələsini beynəlxalq təşkilatlarda və məhkəmələrdə qaldırıb.

Hətta, sentyabrın 19-20-də birgünlük antiterror tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələrinin qalıqlarının Qarabağdan qaçması və erməni əhalisini də özləri ilə aparması belə, Paşinyan hökumətini Azərbaycanın daxili işlərinə qarışmaq fikrindən çəkindirməyib. İşə Fransanın və digər aktorların timsalında rəsmi İrəvanın himayədarları qoşulub və Azərbycan Prezidenti ilə danışıqlarda Qarabağ mövzusunu gündəmə gətirməyə çalışıb, lakin danışıqlar baş tutmayıb. Beynəlxalq Cinayət Məhkəməsi də Ermənistanın Azərbaycana qarşı iddiasının Qarabağın ərazi mənsubiyyətini şübhə altına alan bəndlərini rədd edib.

Əslində, Paşinyan və ətrafı heç də "ağ qanadlı sülh mələkləri" deyillər. Onlar belə davranmağa məcbur olublar. Azərbaycan Prezidenti və Silahlı Qüvvələri onlara başqa seçim şansı qoymayıb!

Azərbaycanın Ermənistan tərəfdən revanş cəhdinin mümkünlüyünə əsaslı şübhələri var. Bu şübhələr tarixin saxtalaşdırılması təcrübəsi (1918-ci ildən ermənilərin Qarabağ mövzusunu qaldırmadığı onillik olmayıb) və Ermənistan qanunvericiliyinə əsaslanır.

Azərbaycan səmimi qəlbdən Ermənistanla uzunmüddətli və sarsılmaz sülh arzulayır. Odur ki, gələcəkdə qisas almağın mümkün olmadığına zəmanət lazımdır. Bu zəmanət nə ilə ifadə oluna bilər?

Təbii ki, ilk növbədə Qarabağın Ermənistanın tərkib hissəsi hesab edildiyi ölkənin Müstəqillik aktı, Konstitusiyası və qanunvericiliyi vurğulanmalıdır. Mövcud kontekstdə təkcə erməni baş nazirin təminatları və imzalanmış sülh müqaviləsi kifayət etməyəcək. Paşinyan bu gün var, sabah isə gedəcək. Bəs onda necə olacaq?! Yenə müharibə?!

Sülh müqaviləsi və onun ratifikasiya prosesi bütün digər qanunvericilik aktlarının həmin müqavilənin müddəalarına uyğunlaşdırılması üçün əsas ola bilər. Ancaq bununla bağlı inanılması vacib olan razılaşmalar və təminatlar lazımdır. Bəs müstəqillik aktı?! Bütün bunlar, ümumən uzunmüddətli həllərin müzakirəsi və işlənib hazırlanmasını tələb edir.

Məsələn, Ermənistan ərazisində özünü ləğv etmiş "DQR"in nümayəndəliyi var ki, onun "parlamenti" artıq "həyat siqnalları" verməyə başlayıb. Təbii, Paşinyanın partiyasının nümayəndələri bildirirlər ki, Ermənistan ərazisindəki bu fəaliyyət ölkənin özü üçün də təhlükəsizlik riskləri yaradır. Amma deyilənlər sadəcə boş bəyanatlardır.

Yanvarın 1-i yaxınlaşır, ondan sonra formal olaraq "DQR" mövcud olmayacaq. Lakin bu tarixə qədər Ermənistan ərazisində sülh prosesinə xələl gətirə biləcək addımlar atıla bilər. Ermənistanda üzərində qondarma qurumun rəmzləri əks olunan bina ola bilməz və olmamalıdır. Fərdi mülki təşəbbüslər ayrı məsələdir, lakin nümayəndəlik dövlət qeydiyyatına alınmış hüquqi şəxsdir.

Erməni hökuməti nəzərə almalıdır ki, atılan addımlar ardıcıl və prinsipial olmalı, sülh gündəmini dərinləşdirmək üçün etimad mühiti yaratmalıdır. Paşinyan hökumətinin bundan əvvəlki bəyanatları və hərəkətləri prosesə ancaq ziyan vurub.

ABŞ, Fransa, Avropa İttifaqının institutlarının simasında Ermənistanın himayədarları da "Qarabağ qovluğunu" bağlamalıdırlar, əks halda Ermənistan Azərbaycanla sülhə nail ola bilməz. Əgər Ermənistan Respublikası və ermənilər onlar üçün bu qədər əzizdirsə, o zaman sülh prosesinin məntiqinə əməl etməlidirlər.

***Fərhad MƏMMƏDOV,***
***Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin rəhbəri, politoloq***

**Köşə**

# "Axillesin dabanı" mifi İrəvanda gerçəkləşmədi

## *Qərb Ermənistanı "oxbatmaz" etmək istəyirdi*

**Ermənistan ideoloqlarının öz ölkələri və haylar haqqında yaratdığı çoxsaylı miflər Azərbaycan əsgərinin çəkmələri altında heç-puç olduqdan sonra daha kimsə o rəvayətlərə inanmır. Ancaq mən işğalçı qonşumuzun hazırkı durumu barədə düşünəndə qədim yunan əsatirlərindəki "Axillesin dabanı"nı xatırlayıram.**

Azərbaycan Ordusunun bu ilin sentyabrında reallaşdırdığı 23 saatlıq lokal xarakterli antiterror tədbirlərinin məlum nəticələrindən sonra regionun (bəli, təkcə Azərbaycanın yox, məhz regionun) kütləvi informasiya vasitələrində "Fransa 6-cı Paris Sülh Konfransı keçirildiyi gün Ermənistana silahlar göndərdi", "Azərbaycan Fransanın Ermənistana silah satmasından narazıdır", "Fransanın hərbi texnikası Gürcüstandan keçərək Ermənistana doğru hərəkət edir", "Parisin Ermənistana silah göndərməsinə Ankaranın münasibəti necə olacaq?", "Fransanın Ermənistanda möhkəmlənmək istəyi Kremlə təzyiqdirmi?", "Rəsmi Bakı Ermənistanın yenidən silahlandırılmasını təmkinlə izləyir" və digər bu kimi sərlövhələrə, az qala, hər gün rast gəlirik.

Bütün bunları eşidəndə Axillesin məğlubedilməz, cəsarətli obrazı yada düşür. Rəvayətə görə, qəhrəmana atılan oxların heç biri ona zərər vurmurmuş. Çünki, anası Fetida (oxu: Ermənistanın bacısı Fransa) Axillesi məğlubedilməz görmək istədiyindən, övladını müqəddəs sayılan Stiks çayının (oxu: Notr Dam kilsəsinin) suyuna salır, amma bu zaman oğlunun daban nahiyyəsindən tutduğundan, su dəyməyən o nahiyə qorunmurmuş.

Əsatirdə deyilir ki, Axillesin tərbiyəçisi kentavr Xiron (Ermənistanı bəsləyən kentavrların sayını heç İrəvanda da bilmirlər) onu şir, ayı və qabanların daxili orqanları ilə bəsləyir (oxu: Qarabağ və Şərqi Zəngəzurun bütün naz-nemətləri ilə), musiqi alətində çalıb oxumağı (oxu: Qarabağda yallı getməyi) öyrədirmiş. Ona görə də Axilles qorxubilməz döyüşçü kimi boya-başa çatıb. Yəni, Azərbaycan ərazilərinin 20 faizini otuz il işğal altında saxlayıb...

Nəhayət, döyüşlərin birində (oxu: İkinci Qarabağ müharibəsində) rəqibi Axillesi öldürməyi bacarır. Qədim əsatirdə onu öldürən cəngavərin adı Paris idi. İndiki qalib cəngavər isə Azərbaycan əsgəridir. Ancaq bu, o demək deyil ki, mifik qəhrəmanın indiki acı aqibətində Parisin rolu olmayıb. Olub. Həm də lap çox. Çünki Qərb paytaxtları, xüsusən Paris Ermənistana "Qorxma, qorxma!" – deyərək, onu rüsvayçı məğlubiyyətə sürükləyirdi. Hazırda Fransanın bu oyuncaq dövləti yenidən silahlandırması isə Ermənistanın tamamilə məhvini reallaşdıra bilər.



**İttifaq MİRZƏBƏYLİ**
**i-mirzebeyli@mail.ru**

**Bir neçə gün əvvəl İrəvandan xəbər gəldi ki, Ermənistan məhkəməsi bu ilin aprelində namünasib hava şəraitində azaraq onlar tərəfə keçmiş və saxlanılmış Azərbaycan əsgərinə ömürlük həbs cəzası verib. O zaman, az qala, xalqımızın hər bir fərdinin ürəyində inam yaranmışdı ki, nəyin nə zaman və necə edilməsini hamıdan yaxşı bilən Prezident, Ali Baş Komandan İlham Əliyev məsələnin belə qalmasına imkan verməz. Elə də oldu. Azərbaycanın lideri Axillesin dabanını necə nişan aldısa, əsgərimizi böyük məmnunluqla gətirib özümüzə təhvil verdilər. Üstəlik, elan etdilər ki, yaxın günlərdə sülh sazişinin imzalanmasına hazırdırlar. Hazırlaşsınlar. Ümid edək ki, nəhayət sülhün hamıdan çox özlərinə lazım olduğunu anlayıblar. Özlərini yaxşı aparsalar, inanarıq da...**

# Sülhün 2024-cü il ümidi: Vaşinqtonda Cənubi Qafqaz müzakirəsinə doğru

**(əvvəli 1-ci səhifədə)**

A.Mirzoyan Estoniyanın Xarici işlər naziri Markus Tsakha ilə keçirdiyi mətbuat konfransında bildirib ki, Cənubi Qafqazda güc tətbiqindən uzaq və ləyaqətli sülhün bərqərar olması bütün qonşu ölkələrin aydın öhdəliyini və beynəlxalq tərəfdaşların güclü, səmimi dəstəyini tələb edir. Deməli, qonşu ölkələrin öhdəliklərinin aydın olub-olmadığı müəyyən deyil və görünür, heç müəyyənləşməyəcək də. Beynəlxalq tərəfdaşlara gəldikdə isə onlar elə güclü dəstək vermirlər ki, İrəvan durumu səmimi qarşılasın. Görünür, Ermənistanın bununla əlaqədar öz kriteriyaları fərqlidir...

Səmimiyyətdən söz düşmüşkən, A. Mirzoyanın estoniyalı həmkarı ilə birgə mətbuat konfransında səsləndirdiyi digər fikirlər də var ki, həmin fikirlər Ermənistanın Azərbaycanla sülh gündəliyinə heç də səmimi yanaşmadığının təsdiqidir. Çünki erməni nazir yenə köhnə havalara baş vurmaqdadır. Məsələn, o, Azərbaycanın XİN rəhbəri C.Bayramovla sonuncu görüşünün sentyabrın 18-də Nyu-Yorkda, BMT Baş Assambleyasının 78-ci sessiyası zamanı baş tutduğunu deyib. Eyni zamanda, bundan iki gün əvvəl Brüsseldəki qısa söhbəti xatırladıb. “3+3” platforması çərçivəsində Tehrandakı görüşünü tamamilə yaddan çıxaran Mirzoyan sentyabr təmasından sonra regionda mühüm hadisələrin baş verdiyini diqqətə çatdırıb: “Sentyabrda biz Dağlıq Qarabağ ermənilərinin hüquqlarını və təhlükəsizliyini, Laçın dəhlizinin qanunsuz blokadasının aradan qaldırılmasını müzakirə etmişiksə, görüşümüzün ertəsi günü baş verən hadisə, Azərbaycanın Qarabağa hücumu ilə, vəziyyət xeyli dəyişdi. Bu gün etnik təmizləmə nəticəsində Qarabağda, demək olar ki, erməni qalmayıb. 100 mindən çox əhali qaçqın düşüb və Ermənistan Respublikasında sığınacaq tapıb”.

Mirzoyanın daha sonra dediklərinə nəzərən düşünülə bilər ki, erməni nazir Qarabağ ermənilərinin qaçqın düşməsi məsələsini Avropa Birliyində təmsil olunan Estoniyadan yardım almaq üçün gündəmə gətirir. Amma məsələ yalnız bunda deyil. Erməni XİN rəhbəri hələ də Qarabağ erməniləri xüsusunda Azərbaycanın bölgəyə hücumu məntiqini qabardırsa, deməli, İrəvan köhnə şakərindədir. Yəni, sülh gündəliyinə zidd davranır.

***

Sülh gündəliyinə daha bir zidd məqam Mirzoyanın bu il oktyabrın 5-də keçirilmiş Qranada görüşünü yada salmasıdır. Məlum olduğu kimi, Avropa Siyasi Birliyinin üçüncü Zirvə toplantısı çərçivəsində keçirilmiş görüşə Azərbaycan Prezidenti İlham Əliyev qatılmamışdı. Bu yerdə dövlətimizin başçısının Qranada görüşü ilə bağlı ən son fikrini diqqətə çatdıraq. Ölkəmizin lideri ADA Universitetində keçirilən “Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər” mövzusuna həsr olunmuş Beynəlxalq Forumdakı çıxışında bildirib: “Mən çox təəccübləndim, onlar bu görüşü mənsiz təşkil etdilər. Sanki mən özüm öz toyumda iştirak etmədən məni evləndirdilər. Bunu necə etmək olar? Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması ilə bağlı qətnaməni necə qəbul edə bilərlər ki, mən özüm orada olmamışam”

Bəli, Qranadada Ermənistanın baş naziri Nikol Paşinyan, Fransa Prezidenti Emmanuel Makron, Almaniya Kansleri Olaf Şolts və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel bir araya gələrək, müəyyən sənədlər imzalamışdılar. O sənədlər ki, Paşinyan bir müddət onları Azərbaycan-Ermənistan sülh gündəliyi müstəvisində ehkamlaşdırmaq yolu tutdu, amma Qranada gündəliyini tam şəkildə əsas saymaq mümkün olmadı. İndi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının və Ermənistan Respublikası Baş nazirinin Aparatının birgə açıqlamasının pozitiv ab-hava formalaşdırdığı bir məqamda, Mirzoyanın Qranada görüşünü yada salması və həmin görüşdə qəbul edilən sənədlərin prinsipial əhəmiyyətindən danışması məntiqsizdir. Əlbəttə, bu məntiqsizlik qeyri-səmimi durum formalaşdırmaqdadır. Real nəticə verən sənəd, yəni birgə açıqlama qalıb kənarda, erməni XİN rəhbəri tam əhəmiyyətsiz Qranada gündəliyini yada salır və bildirir ki, Azərbaycan da qeyd-şərtsiz elan olunmuş prinsiplərə sadiqliyini göstərməlidir. Görəsən, erməni nazirin başqa istək və arzusu varmı?..

Əslində, Mirzoyan birgə açıqlamanın mühüm əhəmiyyətini vurğulamalı olduğu halda, Qranadadan danışmamalı idi. Düşünməli idi ki, məsələ Azərbaycan tərəfində qıcıq doğura bilər. Ancaq mövcud məqamı nəzərə almır...



***

Ümumən, Mirzoyan sülh prosesi ilə bağlı prinsipial məsələlərdən uzaqdır. Belə təsəvvür yaranır ki, o, ya punktual siyasət adamı deyil, ya da özü qəsdən belə davranır. Məsələn, deyir ki, Ermənistan və Azərbaycan arasında müzakirə olunan məsələlərdən biri də hər iki ölkənin qoşunlarının sərhəd ərazilərindən çıxarılmasıdır. Məlumdur ki, bu, predmet baxımından yalnız sonranın mövzusu ola bilər. Məsələ hazırkı mərhələnin vacib prioriteti kimi qiymətləndirilməkdən uzaqdır. İndinin söhbəti dünyanın bir sıra beynəlxalq qütblərinin təqdir etdikləri birgə açıqlamadır ki, Mirzoyan sənədin təminat məntiqini heçə endirir və deyir ki, bu, yeganə etibarlılıq vasitəsi deyil. Halbuki, məhz həmin sənədə görə, 32 erməni hərbi əsir artıq öz evindədir. Üstəlik, birgə açıqlama danışıqların növbəti axarı üçün Mirzoyanın haqqında söz açdığı səmimiyyət ab-havasını formalaşdırmaqdadır. Bu səmimiyyət isə qoşunların sərhəddən uzaq tutulmasında da, hərbi eskalasiya riskinin aradan qaldırılmasında da başlıca mənəvi alətdir. Birbaşa qoşunların geri çəkilməsi məntiqini qabartmaq isə o deməkdir ki, İrəvan Azərbaycanın Ermənistan ərazisini işğal etdiyinə dair əvvəlki sərsəm ritorikaya baş vurmağı planlaşdırır.

***

A.Mirzoyan Ermənistan-Azərbaycan qarşılıqlı addımlarının iki ölkə arasındakı münasibətlərin tənzimlənməsinə müsbət təsir göstərəcəyinə ümidvar olduğunu da bildirir. Bu zaman özü də təsdiqləyir ki, əsas məsələ sülh müqaviləsi üzrə danışıqlardır. Ancaq burada da ölkəmizə qarşı qərəz duyulmaqdadır. Onun “Azərbaycan görüşlər formatında danışıqlar masasına qayıtmalıdır” fikri anlaşılmazdır. Çünki Bakı danışıqlardan qaçan tərəf deyil. Əksinə, indiyədək İrəvan müxtəlif mahiyyətsiz məsələləri ön plana çəkməklə, təmasların başlıca predmetini inkar etmək yolu tutub, fərqli reallıqlar formalaşdırmaq istəyib. Ona görə də hazırda Mirzoyanın “işin böyük hissəsi görülüb və indi əsas məsələlərin yekun redaksiyası üzrə görüşmək və razılığa gəlmək lazımdır” söyləməsi şübhəli görünür. Doğrudanmı, işin əsas hissəsi görülüb? Görülübsə, nəyə görə erməni XİN rəhbəri Azərbaycanın Qarabağa hücumu ritorikasını qabardır? Nə üçün bölgənin erməni əhalisinin hüquq və təhlükəsizliyindən danışır?

***

Qarabağın erməni əhalisinin hüquq və təhlükəsizliyindən söz düşmüşkən, Ermənistanın Azatutyun radiosu məsələyə dair ölkənin Xarici İşlər Nazirliyinə sorğu ünvanlayıb. XİN sorğuya cavabında noyabrın 21-də İrəvanın Bakıya göndərdiyi Ermənistan-Azərbaycan sülh müqaviləsinin 6-cı variantında Qarabağla bağlı hər hansı müddəanın olub-olmadığını dəqiqləşdirməyib. Qurum bildirib ki, Ermənistan üçün ölkənin və Azərbaycanın ərazi bütövlüyünün qarşılıqlı tanınması, SSRİ Baş Qərargahının son xəritələri əsasında dövlət sərhədlərinin demarkasiyası, eləcə də suverenlik prinsipi və milli yurisdiksiyalar üzrə regional kommunikasiyaların açılması üzərində təcili iş aparılması böyük əhəmiyyət daşıyır.

Göründüyü kimi, suala konkret cavab yoxdur. Ancaq Azərbaycanın sentyabrın 19-da keçirdiyi antiterror tədbirlərinə qədər baş nazir N.Paşinyan bildirirdi ki, Qarabağ ermənilərinin hüquqları və təhlükəsizliyi məsələsi İrəvanla Bakı arasındakı danışıqların qırmızı xəttidir. Yeri gəlmişkən, deyək ki, ötən həftə parlamentdə müxalifət nümayəndələrinin Qarabağın gələcəyi mövzusundakı sualını cavablandıran baş nazir vurğulamışdı ki, onun problemi Ermənistan Respublikasının gələcəyidir. Deməli, hazırda Vaşinqton görüşündən sülh gözləntisinin mövcudluğu şəraitində A.Mrizoyanın yenə, belə demək mümkünsə, Qarabağ zənguləleri vurması anlaşılmazdır. Həmçinin, onun real mahiyyətdən uzaq məsələlərin üzərinə vaciblik qrifi vurub onları gündəmə gətirməsi də. Ümumən, Ermənistan rəhbərliyi həmişə bir qayda olaraq məsuliyyətsiz bəyanatlar verdiyindən, ilk baxışdan, dəxlisiz kimi görünən məqamları qabartdığından, daxili təpkilərlə üzləşir. Halbuki reallıqları soyuq qiymətləndirsə, bütün bunlar baş verməyə, tənələrdən uzaq dura bilər.

***

Sonda ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Millerin açıqlamasına diqqət yetirək. Cənab Miller Birləşmiş Ştatların Ermənistan və Azərbaycan arasında hərbi əsirlərin mübadiləsindən sonra sülhün mümkün olacağına inandığını bildirib. Ölkəsinin Bakı və İrəvanla mövcud istiqamətdəki işi davam etdirəcəyini deyən departament sözçüsünün üzərində dayandığı məqam budur ki, sülhün əldə olunması üçün hər iki tərəfin prosesə sadiqliyi vacibdir. Yuxarıda vurğuladıqlarımız Ermənistanın sülhə sadiqliyinin göstəricisi baxımından nikbin əhval-ruhiyyə yaratmasa da, Azərbaycan və Ermənistan XİN rəhbərlərinin yanvarda nəzərdə tutulan Vaşinqton təmasından gözləntilər var. Sülh gözləntisinin özünü doğruldub-doğrultmayacağını isə ələhəzrət zaman göstərəcək.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Bakı sülhə səs verir! Bəs İrəvan?

**(əvvəli 1-ci səhifədə)**

Sülh sazişinin son mətninə İrəvanın konkret hansı təklifləri əlavə etdiyi tam açıqlanmasa da, erməni ictimaiyyətinin ikitərəfli danışıqlara müsbət yanaşdığı ortadadır. Bu reallığı Paşinyana qədərki hakimiyyət nümayəndələrinin də qəbul etdiklərinin və prosesə müsbət yanaşdıqlarının təzahürləri görünməkdədir. Məsələn, Ermənistanın keçmiş baş naziri Armen Darbinyan hesab edir ki, Türkiyə və Azərbaycanla danışıqlar vasitəçi ölkə olmadan aparılmalıdır. O, bu məsələyə praqmatik baxılmasının tərəfdarı olduğunu deyir: “Bir çox yerlərdə belə bir fikir eşidirik ki, Ermənistan–Azərbaycan danışıqlarına vasitəçisiz getmək olmaz. Mən bu cür fikirləri doğru hesab etmirəm. Düşmənlərimizlə mübarizə aparmaqdan ötrü arxamızda niyə rusa, fransıza və ya amerikalıya ehtiyacımız olmalıdır? Yox, biz ayağa qalxıb onlara öz ləyaqətimizlə yanaşacağıq. Mən bu məsələdə heç bir problem görmürəm”.

Düzdür, məğlubiyyətin acısını unuda bilməyən hayların eks-baş naziri qarşı tərəfi hələ də “düşmən” obrazında görür, amma onunla razılaşmanın alternativinin olmadığını da qəbul edir. Digər tərəfdən, Darbinyan etiraf edir ki, Ermənistan hazırda Azərbaycanla sülh danışıqlarının çox çətin mərhələsindədir: “Bu, diplomatiyadır. Harada dayanmaq, nəyi əldə saxlamaq, danışıqlar yolu ilə nəyi vermək və onun əvəzində nəyi almaq lazımdır! Təəssüf ki, biz indi belə bir vəziyyətlə üzləşmişik. Amma bu halda da problemlərin optimal həlli yollarını axtarmaq və tapmaq olar. Bəli, irəliyə doğru addım atmaq, çıxış yollarını axtarmaq lazımdır. Əks təqdirdə sabah vəziyyətimiz bundan da pis ola bilər”.

Ermənistanın hökumət rəsmilərindən birinin – xüsusi tapşırıqlar üzrə səfir Edmond Marukyanın ikitərəfli sülh danışıqları ilə bağlı açıqlaması isə ictimaiyyət tərəfindən maraqla qarşılanıb. O, Ermənistan İctimai Televiziyasının efirindən bəyan edib ki, 2024-cü ilin yanvar ayında iki ölkənin XİN başçıları - Ceyhun Bayramov və Ararat Mirzoyan Vaşinqtonda görüşəcəklər.



“Hazırda bizim əlimizdə sülh sazişinin imzalanmağa hazır olan son və razılaşdırılmış variantı yoxdur. Ümid edirik ki, Azərbaycanın da razılıq verdiyi Vaşinqton görüşündə tərəflər sazişin mətnini təsdiqləyəcəklər”, - deyən Marukyan bununla həm də İrəvanın sülhə kökləndiyini nümayiş etdirib.

* * *

Azərbaycan Sosial Araşdırmalar Mərkəzi Bakı və İrəvan arasında sülhün perspektivləri barədə ictimai rəyi öyrənmək məqsədilə əhali arasında sorğu keçirib. Ölkənin 12 iqtisadi rayonundan yaşı 18-dən yuxarı 390 respondentin qatıldığı sorğunun nəticələrinə əsasən, rəyi soruşulanların 78,5 faizi Ermənistanla sülh müqaviləsinin tərəfdarı olduğunu bildirib. İştirakçıların 20,2 faizi suala mənfi cavab verib, 1,3 faizi isə rəy bildirməkdə çətinlik çəkib. Sorğunun maraq doğuran nəticəsi həm də ondan ibarətdir ki, ermənilərlə sülhü dəstəkləyənlərin 86,9 faizi ali təhsilli vətəndaşlardır.

Noyabrın 25-dən 29-dək aparılan sorğuda rəyi soruşulan kişilərin 42,8 faizi, qadınların isə 31,6 faizi Ermənistanla sülh sazişinin yaxın vaxtlarda imzalanacağına tamamilə inandığını bildirib.

Beləliklə, nəticələr bir həqiqəti üzə çıxardı ki, faktiki olaraq, vətəndaşlarımızın orta hesabla 80 faizi münaqişənin sülh yolu ilə başa çatmasının və Ermənistanla münasibətlərin normallaşmasının tərəfdarıdır. Deməli, ölkə əhalisinin böyük əksəriyyəti artıq qonşu Ermənistanla siyasi və iqtisadi münasibətlərin tam bərpa olunmasına etiraz eləmir.

SAM-ın sorğusu, eyni zamanda, ortaya maraq doğuran bir məqamı da çıxarır: görəsən oxşar rəy sorğusu Ermənistanda keçirilsəydi, eyni sualları sıravi ermənilər necə cavablandırardılar? Onlar da bizim kimi sülhə səs verərdilərmi? Hələlik, əsas suala onların 80 faizinin “hə” deyəcəyi real görünməsə də, prosesin buna doğru getdiyini əminliklə söyləyə bilərik.

* * *

Qayıdaq son günlər Hayastanın daxili siyasi gündəmini məşğul edən sülh dialoquna reaksiyalara. Mövcud kontekstdə siyasi şərhçi Tevos Arşakyanın paylaşımı diqqəti cəlb edir. Arşakyan Ermənistanla Azərbaycan arasında münasibətlərin nizamlanması, sülh prosesində əldə edilən son uğurlara Moskvanın qısqanc yanaşdığından söz açır: “Bu dəfə Moskva Sergey Lavrovun müavini Mixail Qaluzini üstümüzə buraxıb. O, indi həm bizə mühazirə oxumağa, həm də Avropa İttifaqı missiyasının qeyri-konstruktivliyinə işarə vurmağa başlayıb. Guya, Aİ-nin Cənubi Qafqazda yürütdüyü siyasət Rusiyanı bu bölgədən sıxışdırıb çıxarmağa xidmət edir”.

Xatırladaq ki, Aİ Ermənistandakı mülki müşahidə missiyası heyətinin sayını 138 nəfərdən 209-a çatdırmaq qərarına gəlib. Tevos Arşakyan bunun üçün İrəvanın heç kimdən, o cümlədən tərəfdaşlarından və qondarma müttəfiqlərindən icazə istəmək məcburiyyətində olmadığını ərz edir: “Biz belə düşünürük, amma nədənsə davranışımızın şərtlərini diktə etmək hüququna sahib olduqlarına inanan bəzi “müttəfiqlər” ərazimizə kimi qəbul etməyimizə müdaxiləyə çalışır. Burada söhbət, təxmin etdiyiniz kimi, avromissiyanın Ermənistanda genişlənməsinə görə haray-həşir salan Rusiyadan gedir. Moskva çox narahatdır. Bəli, Azərbaycan–Ermənistan münasibətlərinin tənzimlənməsi Kremli əndişələndirir. Əlbəttə, İrəvan və Bakı indi fəal şəkildə, birbaşa danışıqlar aparmağa başlayıb. Bunu birgə bəyanat və qarşılıqlı razılaşmanın müsbət nəticəsi kimi hərbi əsirlərin mübadiləsi sübuta yetirir. İlk dəfədir ki, Bakı və İrəvan məhz Moskvanın vasitəçiliyi olmadan “tet-a-tet” danışmağa başladı. Aydın məsələdir ki, Rusiya bunu həzm edə bilmir. Amma mən əminəm ki, əgər Moskva olmasaydı, azərbaycanlılar və ermənilər öz aralarında çoxdan ortaq məxrəcə gələ bilərdilər”.

Erməni politoloqun İrəvanın şimallı strateji müttəfiqinə qarşı, kifayət qədər sərt reaksiyanın sərgiləndiyi bu açıqlamasını sosial şəbəkədə dəstəkləyənlərin sayı yüzlərlədir.

Bu arada Ermənistanın rəsmi mediası ölkənin Nazirlər Kabinetinin dövlət sərhədinin delimitasiyası üzrə hökumətlərarası komissiyanın iş reqlamentini təsdiqlədiyini açıqlayıb. İkitərəfli dialoqun əsas mövzularından hesab olunan bu müstəvidə də irəliləyişin əldə olunması sülhə ümidləri artırır. Bu barədə baş nazirin müavini Mqer Qriqoryan deyib: “Bu, hələlik texniki sənəddir, amma tezliklə iş metodologiyası təsdiqlənməlidir. Bundan sonra tərəflər konkret sənədlər və topoqrafik xəritələr üzərində işə başlayacaqlar”.

Yəni, tərəfləri barışığa aparan yolda buzların əridiyinin, süni maneələrin aradan qalxdığının şahidi olmaqdayıq. Ümid edək ki, rəsmi İrəvan məsələyə bu dəfə diplomatik imitasiyadan uzaq, şəffaf və sağlam mövqedən yanaşır. Yox, əgər Ermənistan yenidən suyu bulandıranların felinə uyub yolun yarısından dönəcəksə, onda vay onun hakimiyyətinin də, cəmiyyətin də halına.

***İ.HƏSƏNQALA***
***XQ***

## EKSPERT RƏYİ



**Elxan ŞAHİNOĞLU,**
**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri,**
**siyasi şərhçi**

**Aydın məsələdir ki, dənizə çıxışı olmayan Ermənistan üçün Azərbaycanla sülh sazişini imzalanmasının əhəmiyyəti xeyli artıb. Birincisi, sülh sazişi imzalanarsa, Ermənistan Azərbaycan üzərindən Xəzər dənizinə və buradan Mərkəzi Asiyaya və Çinə çıxış imkanı əldə edəcək. İkincisi, Ermənistanın Azərbaycanla sülh müqaviləsi imzalaması İrəvanın Türkiyə ilə də münasibətlərinin normallaşmasına, eyni zamanda sərhədlərinin açılmasına imkan verəcək. Bu, həm də Aralıq dənizinə çıxış imkanı deməkdir.**

**Otuz ildən artıqdır ki, Ermənistanın həm Türkiyə, həm də Azərbaycanla sərhədləri bağlıdır. Paşinyan sülhə doğru addım atmaqla, nəqliyyat kommunikasiyalarının açılmasına marağını ortaya qoyub. Amma məsələ ondadır ki, Ermənistanın baş naziri rəsmi Bakının Zəngəzur dəhlizi təklifini qəbul etməlidir. Bu zaman iki ölkə arasında artıq real görünməyə başlanan sülhə nail olmaqdan ötrü heç bir maneə qalmayacaq.**

# Beynəlxalq konfrans Azərbaycanı dəstəklədi

## *Fransanın tələbi ilə Muhammad Rabbani konfransa buraxılmadı*



**Neokolonializmlə bağlı Cenevrədə keçirilən beynəlxalq konfransın iştirakçıları Azərbaycanın gələn il BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası - COP29-a ev sahibliyi etmək missiyasını dəstəkləyiblər.**

Bu barədə BMT-nin Cenevrə ofisində Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə keçirilən "Neokolonializm: İnsan hüquqları, sülh və təhlükəsizlik" mövzusunda beynəlxalq konfransda qeyd edilib. İştirakçılar gələn il COP 29-a ev sahibliyi etmək missiyası həvalə edilmiş Azərbaycan Respublikasını ürəkdən təbrik ediblər. Onlar əminlik ifadə ediblər ki, Azərbaycan bu qlobal miqyaslı və planetimizin gələcəyi üçün vacib olan hadisə çərçivəsində həm qlobal istiləşmə, həm də müstəmləkəsizləşdirmə çağırışlarını nəzərə alacaq.

Qeyd edək ki, dünən BMT-nin Cenevrə ofisində Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə "Neokolonializm: İnsan hüquqları, sülh və təhlükəsizlik" mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfransda ABŞ, Böyük Britaniya, Fransa, Türkiyə, İsveçrə, Əlcəzair, Pakistan, Serbiya, Qətər, Seneqal, Kamerun, Vyetnam, Qəmər Adaları İttifaqı, Qvadelupa, Fransız Qvianası, Yeni Kaledoniya, Korsika, Martinika, Fransız Polineziyası, Korsika, Valis və Futuna, Solomon adalarından, İslam Əməkdaşlıq Təşkilatı və BMT-nin Qadınlara qarşı Zorakılığın Ləğv edilməsi üzrə Komitəsindən 50-yə yaxın nümayəndə, eləcə də insan hüquqları və dekolonizasiya üzrə ixtisaslaşan QHT-lərin rəhbərləri, xarici media təmsilçiləri iştirak edib.

Konfrans Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə 2023-cü il üzrə kolonializmə qarşı mübarizə aparan və azad olmağa çalışan xalqları dəstəkləməyə həsr olunmuş IV beynəlxalq tədbirdir.

Xatırladaq ki, insan hüquqlarının müdafiəsi ilə məşğul olan "CAGE" QHT rəhbəri, Böyük Britaniya vətəndaşı Muhammad Rabbani bu konfransda iştirak etmək üçün İsveçrəyə gəlsə də, Fransanın tələbi ilə İsveçrə polisi tərəfindən saxlanılıb. Polis məhdudlaşdırmanın səbəbinin Fransa olduğunu etiraf edib. Hüquq müdafiəçisi Rabbaninin özünün və vəkilinin haqlı tələblərinə baxmayaraq, İsveçrə polisi onu buraxmaqdan imtina edib.

***

Sonda beynəlxalq konfransın Yekun Bəyannaməsi qəbul olunub:

I. Bakı Təşəbbüs Qrupunun təşəbbüsü ilə 2023-cü il dekabrın 14-də Cenevrədə təşkil olunmuş və Fransanın son müstəmləkələri olan Fransız Qvianası, Martinik, Qvadelupa, Polineziya, Yeni Kaledoniya, Korsika, eləcə də Seneqal, Əlcəzair kimi keçmiş koloniyaların nümayəndələri və təxminən on beş başqa ölkədən olan iştirakçılar dənizaşırı departamentlər, regionlar və kollektivlərin süni hüquqi pərdə arxasında real hökmranlığı davam etdirən fransız müstəmləkə sisteminin ziyanlı əməllərini pisləyirlər və bu dominasiyanın davam etməsini aşağıdakı formada xarakterizə edirlər:




- Fransa inhisarlarının xeyrinə əhalinin həddindən artıq ərzaq asılılığını (ərzaq məhsullarının 80%-dən çoxu Fransadan gəlir), həyatın yüksək qiymətini təşkil edən düşünülmüş zəif iqtisadi inkişaf strategiyasının aidiyyəti ölkələrdə həyata keçirilməsi; yoxsulluq (Fransız Qvianası əhalisinin 50%-i yoxsulluq həddində yaşayır) və kütləvi işsizlik, beləliklə, bu ərazilərin gələcəyini ciddi şəkildə təhlükə altına alan hər cür sui-istifadələrin (zorakılıq, silah və narkotik ticarəti) həyata keçirilməsi;

- Fransız Qvianası yerli xalqlarının əsas hüquqlarının pozulması;

- Fransız mədəniyyəti hegemonluğu institutları və getdikcə yoxa çıxmaq təhlükəsi altında olan yerli dilləri arxa plana keçirən və xalqlarımızın tarixinə, coğrafiyalarımıza uyğun gəlməyən fransız məktəb proqramlarını uşaqlarımıza təthiq edən assimilyasiya siyasəti nə xalqlarımızın tarixinə, nə coğrafiyamıza, nə mədəniyyətlərimizə, nə də gələcəyimiz üçün ambisiyalarımıza uyğun gəlmir;

- Torpaqların zəbt edilməsi (Fransız Qvianası torpaqlarının 90%-i Fransa dövlətinə aiddir), milyonlarla km2 Eksklüziv İqtisadi Zonalarımıza (ZEE) nəzarət (bu, Fransanı 11 milyon km2 ZEE ilə dünyada ikinci dəniz gücü edir) və onilliklər ərzində gənclərimizin Fransaya deportasiyası siyasəti vasitəsilə Qvadelupa və Martinikdə görünməmiş bir demoqrafik böhrana, təbii ehtiyatların talanmasına böyük töhfə verən məskunlaşma müstəmləkəsi;

- Fransız hüquqi dövləti adı altında bütün müqavimət hərəkatlarını cinayətləşdirən və korrupsionerləri qoruyan iki səviyyəli müstəmləkə ədliyyə sisteminin yaradılması;

II. 1960-cı il dekabrın 14-də "Müstəmləkə ölkələrinə və xalqlarına müstəqillik verilməsi haqqında Bəyannamə"nin anım mərasimi çərçivəsində son fransız müstəmləkələrinin nümayəndələri tarix, eləcə də xalqları qarşısında məsuliyyətlərini dərk edərək,

- Birləşmiş Millətlər Təşkilatını, beynəlxalq qurumları və bütün qitə xalqlarını əsas insan hüquqlarının açıq şəkildə pozulması və xalqların inkişafı, əhalinin rifahı və xalqlar arasında sülhə mane olan, mahiyyət etibarilə fundamental insan hüquqlarının kobud şəkildə pozulmasını təşkil edən müstəmləkəçiliyə və neokolonializmə qəti şəkildə son qoyulmasına daha fəal töhfə vermək üçün rəsmi müraciət irəli sürüblər;

- FLNKS-ın Beynəlxalq Ədalət Məhkəməsinə müraciəti və milli müstəqillik kimi ayrılmaz hüquqlarını həyata keçirmək üçün Kanak xalqının Fransa dövlətinə qarşı səfərbər edilməsini dəstəkləyirlər;

- Müharibə riskləri kontekstində, sülh naminə qlobal demilitarizasiyaya və Sakit Okean və Karib dənizi koloniyalarında Fransa bazalarının ləğvinə çağırırlar;

III. Müharibələr, artan beynəlxalq gərginlik, silahlanma yarışının yenidən başlanması, qlobal istiləşmə, davam edən geostrateji təlatümlər nəticəsində baş verə biləcək indiki və gələcək fəlakətlərlə dolu qlobal kontekstdə Bakı Təşəbbüs Qrupu və müstəmləkə və neokolonial hökmranlıq altında olan xalqların nümayəndələri -Mali, Burkina Faso və Niger xalqlarının öz sərvətlərinin talanmasından, fransız imperialist hökmranlığından xilas olmaq üçün apardıqları mübarizəni alqışlayırlar;

IV. Cenevrədə keçirilən bu toplantının bütün iştirakçıları gələn il COP 29-a ev sahibliyi etmək missiyası həvalə edilmiş Azərbaycan Respublikasını ürəkdən təbrik edirlər. Onlar əmindirlər ki, Azərbaycan bu qlobal miqyaslı və planetimizin gələcəyi üçün vacib olan hadisə çərçivəsində həm qlobal istiləşmə, həm də müstəmləkəsizləşdirmə çağırışlarını nəzərə alacaq.

*XQ*

# DSX-nın illik hesabatı

**Dekabrın 14-də Dövlət Sərhəd Xidmətinin 2023-cü ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına dair hesabat müşavirəsi keçirilib.**



Müşavirədə Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev tərəfindən Azərbaycan tarixinin ən böyük sərkərdəsi, Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilmiş möhtəşəm tədbirlər nəticəsində 2023-cü ilin dövlətçilik tariximiz üçün müstəsna əhəmiyyət daşıması və ərazi bütövlüyümüzün tam bərpa edilməsi ilə əlamətdar olması xüsusi vurğulanıb.

Avqustun 7-də ölkə başçısının DSX Sərhəd Qoşunlarının "Qazax" əlahiddə sərhəd diviziyasının hərbi hissə kompleksində yaradılmış şəraitlə tanış olmasının, Dövlət Sərhəd Xidmətinin 2 zabitini "general-mayor" ali hərbi rütbəsinə layiq görməsinin, göstərdikləri igidliyə və şücaətə, xidmətdə fərqləndiklərinə görə DSX əməkdaşlarını orden və medallarla təltif etməsinin şəxsi heyət tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılandığı qeyd edilib.

Tədbirdə Prezident İlham Əliyevin Azərbaycan Sərhəd Mühafizəsi qarşısında qoyduğu tapşırıqların yüksək səviyyədə yerinə yetirilməsi bildirilib. Ölkə ərazisində erməni separatçılığına son qoyulması üçün həlledici əhəmiyyət kəsb edən "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin yaradılması ilə yekunlaşan unikal əməliyyatın keçirilməsi, eləcə də lokal xarakterli antiterror tədbirlərində DSX-nin döyüş tapşırıqlarının tam həcmdə yerinə yetirilməsi ciddi nailiyyətlər sırasında xüsusi olaraq vurğulanıb. O cümlədən 2023-cü ildə Dövlət Sərhəd Xidməti tərəfindən əldə edilmiş əsas nailiyyətlər sırasında:

– iyunun 15-də Ermənistan ərazisindən açılmış atəş nəticəsində "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsində xidmət aparan sərhədçinin yaralanmasına səbəb olan düşmən təxribatına cavab olaraq düşmən snayperlərinin, döyüş postunun və dislokasiya məntəqəsinin zərərsizləşdirilməsi;

– dövlət sərhədini pozduqlarına görə 489, sərhəd rejimini pozduqlarına görə 10 689, axtarışda olan 3609, saxta sənədlərlə 252, özgəsinə məxsus sənədlə 4, dövlət sərhədindən buraxılış məntəqələrindən gizli şəkildə keçməyə cəhd edən 4 nəfərin sərhədçilərin sayıqlığı nəticəsində saxlanılması;

– ölkəmizə qarşı kəşfiyyat-pozuculuq fəaliyyəti məqsədilə xarici xüsusi xidmət orqanları ilə əlaqədə şübhəli bilinən 8 nəfərin müəyyən edilməsi, terrorçuluğa qarşı mübarizə çərçivəsində xaricdə döyüşmüş 7 nəfərin saxlanılması, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan 21, qaçaqmalçılıqla məşğul olan 3, qeyri-qanuni miqrasiya ilə məşğul olan 5 mütəşəkkil cinayətkar dəstənin zərərsizləşdirilməsi;

– il ərzində 2 ton 95 kiloqram 338 qram narkotik vasitənin, 51 milyon 14 min 753 manat dəyərində qaçaqmalın dövlət sərhədindən qanunsuz keçirilməsinin qarşısının alınması, 36 ton 222 kiloqram narkotik xassəli bitkinin məhv edilməsi;

– işğaldan azad edilmiş ərazilərdə 150 kilometr məsafədə yeni yolların çəkilməsi, 354 kilometr yolların əsaslı təmir olunması, 7,1 kilometr məsafədə hərəkət təhlükəsizliyi üçün xüsusi valların salınması və s. qeyd edilib.

Müşavirənin sonunda xidmətdə fərqlənmiş hərbi qulluqçulara dövlət təltifləri təqdim olunub.

*XQ*

# Milli Məclis xəbərləri

### İşsizlərdən niyə plastik kart tələb olunur?

Azərbaycanda sağlamlıq haqqında arayış üçün vətəndaşdan 40 manat dövlət rüsumu tələb olunur. Tibbi arayışın baha olması barədə Milli Məclisdə dəfələrlə məsələ qaldırılıb, şikayətlər səslənib. Müzakirələr zamanı bildirilib ki, bu məbləğ imkansız ailə üçün bir kisə un deməkdir.



Eyni zamanda, son günlər sosial şəbəkələrdə poliklinikalarda sağlamlıq haqqında arayışın alınması üçün rüsumun plastik kartla ödənilməsi müzakirələrə səbəb olub.

Bir qrup deputat bildirib ki, poliklinikaya sağlamlıq arayışı almağa gələn şəxslər, adətən, işə düzəlmək istəyənlərdir. Hələ işə düzəlməyən şəxsdən plastik kart tələb etmək nə dərəcədə doğrudur?

### Qadınların əmək hüquqları artırılır

Milli Məclisdə müzakirəyə çıxarılan "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsində" bəzi yeniliklər nəzərdə tutulub. Bu barədə parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məlumat verib. Dəyişikliyə görə, hamilə, üç yaşına qədər uşağı olan və 18 yaşına qədər əlilliyi olan uşaqlara baxan qadınlar gecə növbələrində, bayram günlərində könüllülük əsasında işə, ezamiyyəyə cəlb oluna bilərlər.

Mövcud qanuna görə bu kateqoriyadan olan azyaşlılara baxan qadınların gecə növbələrində, bayram günlərində işləməsinə qadağa qoyulub. Həmçinin ezamiyyə getmələrinə də icazə yoxdur.

Qanun layihəsinə gözlənilən dəyişikliyin əsas məqsədi ölkədə qadın və kişilərin əmək haqları arasında fərqi azaltmaqdır.

*Hazırladı:*
***Əliqismət BƏDƏLOV***
*XQ*

# Bakı Təşəbbüs Qrupunun Cenevrə çağırışı

**Bakı Təşəbbüs Qrupu tərəfindən Cenevrədə təşkil olunan "Neokolonializm: İnsan hüquqları, sülh və təhlükəsizlik" mövzusunda beynəlxalq konfransının iştirakçıları BMT-nin bu şəhərdəki ofisi qarşısında dinc aksiya keçiriblər.**

Aksiyanın Fransanın keçmiş və indiki müstəmləkələrindən olan iştirakçıları beynəlxalq ictimaiyyətin diqqətini nəinki Parisin Fransanın müstəmləkə siyasətinə cəlb ediblər.

Onlar Fransa müstəmləkəçiliyinə son qoymaq uğrunda apardıqları mübarizələrini qətiyyətlə sona qədər davam etdirəcəklərini bildiriblər.

*XQ*



# Niderlandın əsassız ittihamı qəbuledilməzdir

**Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Niderland Krallığı hökumətinin Ermənistana yardım ayrılması barədə verdiyi 13 dekabr tarixli açıqlamada "etnik erməni anklavına qarşı Azərbaycanın hücumu nəticəsində 100 min erməninin öz evlərindən güclə qovulduqları"nı bəyan etməsinə münasibət bildirib.**

A.Hacızadə bununla bağlı deyib: "Niderland Krallığı hökumətinin sözügedən açıqlamasında ölkəmizə qarşı səsləndirdiyi fikirlər qəbuledilməzdir...

Azərbaycan heç vaxt erməni sakinləri Qarabağdan çıxarmayıb və bölgəni tərk etməmək barədə ölkəmizin çağırışlarına baxmayaraq, Ermənistana və digər ölkələrə miqrasiya etmək onların qərarı olub. Birləşmiş Millətlər Təşkilatının bölgəyə missiyaları Azərbaycan tərəfinin mülki əhalini hədəf almadığını təsdiqləyib və Niderland Krallığında yerləşən Beynəlxalq Ədalət Məhkəməsi də bu istiqamətdə Ermənistanın son iddialarını rədd edib.

Niderland tərəfinin bölgənin beynəlxalq hüquq prinsiplərinə hörmət əsasında gələcək inkişafına və tərəqqisinə maneə törədən belə bəyanatlara son qoyması faydalı olardı".

*XQ*

# Azərbaycan "2023-cü il üzrə Avrasiya həftəsi"ndə

**Dekabrın 13-14-də Parisdə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının "2023-cü il üzrə Avrasiya həftəsi" keçirilib.**

Təşkilatın Avrasiya Rəqabət Qabiliyyəti Proqramına həsr edilən nazirlər səviyyəsində toplantısında Azərbaycan iqtisadiyyat nazirinin müavini Sahib Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunub.



Tədbir çərçivəsində pandemiya və müharibə şoklarına qalib gəlmək üçün dözümlülük və bərpa, Avrasiya məkanında biznes mühiti və islahatlar, habelə Avrasiyada aşağı karbona keçid, dayanıqlı infrastruktur üzrə strateji çərçivələr və digər mövzularda təqdimatlar edilib, müzakirələr aparılıb.

Sonda Sahib Məmmədov Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməsi ilə bağlı qərara istinad edərək, Azərbaycana dəstək verən bütün ölkələrə təşəkkürünü bildirib, OECD-in bütün üzvlərini bu tədbirdə fəal iştiraka çağırıb.

*XQ*

# Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti peşəkar gizir heyətinin hazırlanması məqsədilə Bakı, Gəncə şəhərlərində və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində 3 xüsusi təyinatlı hərbi kolleci (bundan sonra – hərbi kollec) üç ay müddətində yaratsın və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**2.** 2024–2025-ci tədris ilindən başlayaraq təhsil almaq üçün Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki ali təhsil müəssisəsinin bakalavriat səviyyəsinə, o cümlədən bakalavriat səviyyəsinin hazırlıq kursuna (bundan sonra – ali təhsil müəssisəsi) və hərbi kolleclərə qəbul olunmuş kursantlar üçün 500 (beş yüz) manat, hərbi liseylərə qəbul olunmuş kursantlar üçün 300 (üç yüz) manat məbləğində birdəfəlik ödəmə təsis edilsin.

**3.** 2024–2025-ci tədris ilindən başlayaraq bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan təhsil müəssisələrində təhsil alan kursantlar üçün təhsil müddətində aşağıdakı aylıq ödəmələr təsis edilsin:

3.1. ali təhsil müəssisəsi üzrə:

3.1.1. 150 (yüz əlli) manat məbləğində təqaüd;

3.1.2. 200 (iki yüz) manat məbləğində ailə üzvlərinə maddi yardım;

3.1.3. 200 (iki yüz) manat məbləğində hesabda yığılan ödəniş;

3.2. hərbi kolleclər üzrə:

3.2.1. 100 (yüz) manat məbləğində təqaüd;

3.2.2. 200 (iki yüz) manat məbləğində ailə üzvlərinə maddi yardım;

3.2.3. 150 (yüz əlli) manat məbləğində hesabda yığılan ödəniş;

3.3. hərbi liseylər üzrə:

3.3.1. 50 (əlli) manat məbləğində təqaüd;

3.3.2. 100 (yüz) manat məbləğində ailə üzvlərinə maddi yardım;

3.3.3. 100 (yüz) manat məbləğində hesabda yığılan ödəniş.

**4.** 2024–2025-ci tədris ilindən başlayaraq ali təhsil müəssisəsinə və hərbi kolleclərə daxil olan kursantlar həmin təhsil müəssisələrindən məzun olaraq Azərbaycan Ordusunda 5 təqvim ili zabit və ya gizir kimi həqiqi hərbi xidmət keçdikdən sonra yaşayış sahəsinin alınması üçün Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına güzəştli ipoteka kreditindən istifadə etdikdə müvafiq yaşayış sahəsinin qiymətinin 15 faizədək olan hissəsi dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilsin.

**5.** Müəyyən edilsin ki:

5.1. bu Fərmanın 3.1.3-cü, 3.2.3-cü və 3.3.3-cü yarımbəndlərində göstərilən ödənişlər bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan kursantların hər biri üçün açılmış hesabda yığılır;

5.2. bu Fərmanın 5.1-ci bəndinə uyğun olaraq hesabda yığılan vəsait və həmin vəsaitin idarə olunmasından əldə edilən gəlir aşağıdakı hallarda ödənilir:

5.2.1. ali təhsil müəssisəsini və hərbi kollecləri bitirmiş məzunlara – Azərbaycan Ordusunda müvafiq qaydada zabit və ya gizir kimi vəzifəyə təyin edilərək həmin vəzifənin icrasına başladıqda;

5.2.2. hərbi liseyləri bitirmiş məzunlara – ali təhsil müəssisəsinə qəbul olduqda;

5.3. bu Fərmanın 2-ci və 3-cü hissələrində nəzərdə tutulan ödəmələr (bundan sonra – ödəmələr) dövlət büdcəsinin vəsaiti hesabına Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən ödənilir;

5.4. bu Fərmanın 4-cü hissəsində nəzərdə tutulan şəxslər güzəştli ipoteka kreditindən istifadə etdikdə onlara "Azərbaycan Ordusunun hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 dekabr tarixli 569 nömrəli Fərmanının müddəaları şamil olunmur.

**6.** Hərbi kolleclərin fəaliyyətinin təşkili və zəruri infrastrukturun yaradılması məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə ilkin olaraq 2 (iki) milyon manat məbləğində vəsait ayrılsın.

**7.** Azərbaycan Respublikasının Nazirlər Kabineti üç ay müddətində:

7.1. "Gənclərin Azərbaycan Respublikası Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almalarına dair 2024–2033-cü illər üçün Tədbirlər Planı"nın layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.2. ödəmələrin verilməsi, vəsaitlərin hesablarda yerləşdirilməsi və idarə edilməsi, habelə hesabda yığılan vəsaitin idarə olunmasından əldə edilən gəlirlər də daxil olmaqla həmin vəsaitlərin ödənilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

7.3. bu Fərmanın 4-cü hissəsinə uyğun olaraq güzəştli ipoteka krediti üzrə yaşayış sahəsinin qiymətinin 15 faizədək olan hissəsinin maliyyələşdirilməsi, habelə güzəştli ipoteka kreditinin bir hissəsinin ödənilməsinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**8.** Azərbaycan Respublikasının Müdafiə Nazirliyi:

8.1. bu Fərmanın 2–4-cü hissələrində nəzərdə tutulan ödəmələrin maliyyələşdirilməsi məqsədilə tələb olunan vəsaitə dair təkliflərini müvafiq illərin dövlət büdcəsində nəzərdə tutulması üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

8.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**9.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 6-cı hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 dekabr 2023-cü il**

# Bakı şəhərinin Xəzər rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Bakı şəhəri Xəzər rayonunun Qala və Buzovna qəsəbələri ərazisində avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 500,0 (beş yüz) min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 dekabr 2023-cü il**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 451** **Bakı şəhəri, 13 dekabr 2023-cü il**

***Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurasının yaradılması, Koordinasiya Şurasının iş Qaydasının təsdiq edilməsi və "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sisteminin risk qiymətləndirilməsinin dövri qaydada keçirilməsinin təmin edilməsinə, müvafiq sahədə həyata keçiriləcək qiymətləndirilməyə hazırlığın təşkil olunmasına və bu məqsədlərlə koordinasiya mexanizminin yaradılmasına dair bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 21 oktyabr tarixli 404 nömrəli Qərarının ləğv edilməsi barədə***

"Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 yanvar tarixli 2007 nömrəli Fərmanının 2.1.5-ci və 2.1.6-cı yarımbəndlərinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurası yaradılsın.

**2.** "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurasının tərkibi" təsdiq edilsin (1 nömrəli əlavə).

**3.** "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurasının iş Qaydası" təsdiq edilsin (2 nömrəli əlavə).

**4.** "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sisteminin risk qiymətləndirilməsinin dövri qaydada keçirilməsinin təmin edilməsinə, müvafiq sahədə həyata keçiriləcək qiymətləndirilməyə hazırlığın təşkil olunmasına və bu məqsədlərlə koordinasiya mexanizminin yaradılmasına dair bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 21 oktyabr tarixli 404 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1292) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Hərbi kadrlar hazırlayan təhsil müəssisələri kursantlarının müavinətlərinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 noyabr tarixli 1789 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Hərbi kadrlar hazırlayan təhsil müəssisələri kursantlarının müavinətlərinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 noyabr tarixli 1789 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 11, maddə 978; 2008, № 6, maddə 496; 2010, № 7, maddə 684; 2014, № 11, maddə 1497; 2018, № 9, maddə 1859; 2022, № 3, maddə 240) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissədən "Heydər Əliyev adına Hərbi İnstitutun," sözləri çıxarılsın;

1.2. 2-ci hissədən "Heydər Əliyev adına Hərbi Liseyin, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin və" sözləri çıxarılsın.

**2.** Bu Sərəncam 2024-cü il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 dekabr 2023-cü il**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 452** **Bakı şəhəri, 14 dekabr 2023-cü il**

***"Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiya arasında iclasların və birgə işçi görüşlərin təşkilinin və keçirilməsinin Reqlamenti"-nin təsdiq edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 23 may tarixli 3272 nömrəli Sərəncamı ilə yaradılmış Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiya arasında iclasların və birgə işçi görüşlərin təşkilinin və keçirilməsinin Reqlamenti" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası bu Qərardan irəli gələn məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# "İnflyasiya və Qiymət Monitorinqi" üzrə İşçi Qrupun növbəti iclası



**Dekabrın 14-də "İnflyasiya və Qiymət Monitorinqi" üzrə İşçi Qrupun növbəti iclası keçirilib.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən bildiriblər ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparat rəhbəri Rüfət Məmmədovun sədrliyi ilə keçirilən İşçi Qrupun iclasında 2023-cü ilin yanvar-noyabr aylarında istehlak bazarında qiymətlərin dəyişməsi, o cümlədən ərzaq və qeyri-ərzaq məhsulları, əhaliyə göstərilmiş ödənişli xidmətlər, ərzaq bazarında idxal olunan məhsulların qiymət indeksi, kənd təsərrüfatı məhsullarının istehsalçı qiyməti, hökumətin antiinflyasiya tədbirləri, habelə ötən iclasda aidiyyəti qurumlara verilmiş tapşırıqların icrası ətraflı müzakirə olunub.

Qeyd olunub ki, Dövlət Statistika Komitəsinin son məlumatına görə, 2023-cü ilin yanvar–noyabr aylarında orta illik inflyasiya birrəqəmli səviyyədə 9.4 faiz, illik inflyasiya 2.6 faiz təşkil edib. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının açıqladığı son məlumata görə, noyabr ayında ərzaq qiymətləri indeksi son bir ildə 10,6 faiz ucuzlaşıb. İnflyasiyanın dinamikası xarici amillərin və həyata keçirilən antiinflyasiya siyasətinin təsirləri ilə azalıb.

İclasda ərzaq məhsulları qrupunda ən çox qiymət artımı müşahidə edilən məhsullar üzrə bazar araşdırılması, istehsal qiymətləri ilə pərakəndə satış qiymətləri arasında fərqlərin yaranma səbəbləri, istehlak qiymətləri indeksinin hesablanmasında istifadə olunan təmsilçi məhsullar üzrə idxalda təmərküzləşmə səviyyəsi, kənd təsərrüfatı məhsullarının satışı və dərman vasitələri bazarında aparılan rəqabət təhlillərinin nəticələri, idxal və yerli istehsal məhsulu əsasında təchizat zənciri boyunca formalaşan xərclər və antiinflyasiya xarakterli pul siyasəti barədə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, Kənd Təsərrüfatı Nazirliyi, Səhiyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi və Mərkəzi Bank tərəfindən görülən işlərə dair məlumat verilib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən "Qiymət İzləmə Tətbiqinin" əsas prinsiplərinə dair metodoloji çərçivə sənədi təqdim olunub və bu istiqamətdə aidiyyəti qurumların nümayəndələrindən ibarət işçi qrupun yaradılması məqsədəuyğun hesab olunub.

İclasın yekununda "İnflyasiya və qiymət monitorinqi" üzrə İşçi qrupun rəhbəri tərəfindən növbəti ildə də antiinflyasiya tədbirlərinin davam etdirilməsi, daxili bazarda sağlam rəqabət mühitinin təmin olunması, qiymətlərin monitorinqi və onun səbəblərinin araşdırılması, inflyasiyanın iqtisadi artım üçün məqbul səviyyəsinin təmin edilməsi istiqamətində zəruri işlərin görüləcəyi qeyd olunub. Rəqabət Məcəlləsinin qəbul olunmasının da bu proseslərə müsbət təkan verəcəyi bildirilib.

***XQ***

# Laçın 20 ailəni də doğma qoynuna aldı

**Dekabrın 14-də Böyük Qayıdış proqramı çərçivəsində Laçına növbəti köç prosesi gerçəkləşib. Səhər saatlarında Qaradağ rayonundan yola salınan ailələr doğma yurdlarına çatıblar.**




Laçın şəhəri bu dəfə daha 20 ailəyə, 86 nəfərə qucaq açıb. Onlar şəhərdə Seyrəngah adlı ərazidə böyük coşqu ilə qarşılanıblar. Sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna minnətdarlıqlarını bildiriblər, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad ediblər.

Bununla da Laçın şəhərində 383 ailə, yəni 1475 nəfərin daimi məskunlaşması təmin edilib.

Qeyd edək ki, köçürülən ailələrin, Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.

***XQ***

# Azərbaycanın Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlığı yeni mərhələdə

## *Beynəlxalq maliyyə qurumu indiyədək 188 layihəyə 3,6 milyard avrodan çox investisiya yatırıb*

**Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsində paylaşdığı məlumatda ölkəmizlə Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) arasında əməkdaşlığın genişləndirilməsinin müzakirə edildiyini və Böyük Britaniyaya səfəri çərçivəsində AYİB-in birinci vitse-prezidenti Yurgen Riqterinklə görüşdüyünü bildirib. O, bu müzakirələrdə, həmçinin bərpaolunan enerji mənbələri, özəl sektor və informasiya texnologiyaları sahələrində ikitərəfli əlaqələrin perspektiv prioritetlərinə də toxunulduğunu vurğulayıb.**




Qeyd edək ki, AYİB-nin Azərbaycandan müdir, iqtisadiyyat naziri M.Cabbarov həmin görüşdə ölkəmizin adıçəkilən bankla əlaqələrin inkişafına daim önəm verdiyini, bu maliyyə qurumunun respublikamızın iqtisadi inkişafına uzunmüddətli və davamlı dəstək göstərdiyini bildirib. Nazir ölkəmizin sosial-iqtisadi inkişaf prioritetlərinin qlobal məqsədlərə uyğunluğunu vurğulayaraq, qarşıya qoyulan hədəflərin reallaşdırılması üçün səylərin birləşdirilməsinin önəmini də qeyd edib.

Xatırladaq ki, AYİB hazırda ölkəmizlə "yaşıl" iqtisadiyyat, bərpaolunan və alternativ enerji kimi istiqamətlər üzrə prioritet layihələrin icrasına böyük maraq göstərir. Bankın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un gələn il Azərbaycanda keçirilməsini yüksək dəyərləndirməsi və bu istiqamətdə Azərbaycana dəstək verməyə hazır olduğunu bildirməsi də bunun bariz ifadəsidir.

Prezidenti İlham Əliyev bu il sentyabrın 7-də AYİB-in birinci vitse-prezidenti Yurgen Riqterinkin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən də maliyyə qurumu ilə ölkəmiz üçün prioritet sahələrdə, xüsusilə bərpaolunan enerji və nəqliyyat-logistika sahələrində əməkdaşlıq məsələləri müzakirə olunub. Eyni zamanda, AYİB ilə Azərbaycan arasında əməkdaşlığın daha da genişləndirilməsinin önəmi vurğulanıb, bankın ölkəmizin enerji layihələrinə ayırdığı kreditlərin vacibliyi qeyd edilib.

Ümumiyyətlə, AYİB tərəfindən aparılan tədqiqatlar Azərbaycanda ekoloji cəhəfdən təmiz hidrogen istehsalının məqsədəuyğun olduğunu təsdiq edib. Bununla yanaşı, adıçəkilən bankın dəstəyi ilə Niderlandın tanınmış "Advision" şirkəti ilə Azərbaycanın hidrogen potensialının qiymətləndirilməsi ilə bağlı təhlili də yekunlaşıb. Qurumun hesabatında ölkəmizin bu sahədəki potensial imkanları ilə bağlı müsbət məqamlar yer alıb.

Maliyyə qurumunun ölkəmizin bərpaolunan enerji layihələrinin həyata keçirilməsi ilə bağlı fəaliyyətindən danışarkən bankən hazırda respublikamızın şərqində 240 meqavatt gücündə külək enerjisi stansiyasının tikintisini maliyyələşdirdiyi daha çox diqqət çəkir. Bu, külək enerjisi sahəsində ölkədə ilk təşəbbüs olmaqla Qafqazda bu cür ən böyük layihədir. Stansiyası istismara verildikdən sonra ildə 893 qiqavatt-saatadək xalis elektrik enerjisinin hasil olunacağı gözlənilir. Ölkəmiz tərəfindən AYİB-in fəaliyyətində xüsusi yer tutan "Xəzər–Avropa İttifaqı Yaşıl Enerji Dəhlizi" layihəsi də yüksək dəyərləndirilir.

Beynəlxalq maliyyə institutunun öləmizlə əməkdaşlığından bəhs edərkən, ötən ilin yayında Gəncə şəhərinin Azərbaycanda ilk pilot şəhər olaraq AYİB-nin "Yaşıl Şəhərlər Proqramı"na qoşulmasını da xatırladaq. Seçilmiş şəhər üçün "Yaşıl Şəhər Fəaliyyət Planı"nın hazırlanması həmin əsasını təşkil edir. Fəaliyyət Planının əsas məqsədi isə "yaşıl" gələcəyə keçidi dəstəkləmək üçün investisiya qoyuluşu və digər tədbirlər vasitəsilə Gəncənin ekoloji məsələlərinin həllinə kömək göstərilməsidir.

AYİB bu ilin əvvəlində Azərbaycanla birgə imzaladığı Anlaşma Memorandumu ilə təsdiqlənən investisiyalar, eləcə də texniki əməkdaşlıq və siyasi dialoq vasitəsilə "yaşıl proqram"ın həyata keçirilməsini qarşıya mühüm vəzifə kimi qoyub.

AYİB-in ölkəmizdəki fəaliyyəti təkcə "yaşıl enerji" layihələrinin maliyyələşdirilməsi ilə məhdudlaşmır. Ümumiyyətlə, Azərbaycan–AYİB əməkdaşlıq imkanları və bankın maliyyə dəstəyi ilə həyata keçirilən layihələr genişmiqyaslıdır. Maliyyə qurumunun indiyədək respublikamızda 188 layihəyə 3,6 milyard avrodan çox sərmayə qoyması, ümumi investisiyaların 13 faizinin özəl sektorun payına düşməsi də bunun bariz təsdiqidir. Bundan başqa, AYİB-in təkcə 2022-ci ildə Azərbaycanda 9 layihəyə 86 milyon avro investisiya qoyması və həmin vəsaitin 71 faizinin "yaşıl iqtisadiyyat"ın inkişafına, bərpaolunan enerji mənbələrinə yönəltməsi isə maliyyə qurumunun ölkəmizin inkişafına əhəmiyyətli töhfəsidir.

AYİB-in respublikamıza belə ciddi maraq göstərməsi bir sıra amillərlə əlaqədardır. Əvvəla, respublikamızın əlverişli coğrafi məkanda yerləşməsi, eləcə də tranzit yüklərin daşınması üçün müasir infrastruktura malik olması bu baxımdan diqqət çəkir. Bu cür əlverişli şərait səbəbindən mühüm nəqliyyat dəhlizlərinin qovşağında yerləşən Azərbaycanla əməkdaşlıq etməyə calışan beynəlxalq maliyyə qurumlarının və dünya ölkələrinin sayı da ilbəil artır. AYİB-in respublikamızla yükdaşımalar sahəsində sıx əməkdaşlıq qurmasını da məhz bu məqam şərtləndirir. Bankla Azərbaycan İnvestisiya Holdinqi arasında razılıq əldə edilməsi – niyyət sənədi imzalanması da bu məsələdən qaynaqlanır. Bu əməkdaşılıq mövcud nəqliyyat dəhlizləri üzrə Azərbaycanın dəniz, avtomobil və dəmir yolu nəqliyyatının iştirakı ilə multimodal daşımaçılığın səmərəliliyini artıraraq iqtisadiyyatın şaxələndirilməsinə mühüm töhfə verir.

Sonda qeyd edək ki, AYİB 1991-ci ildən fəaliyyətə başlayıb. Ötən müddət ərzində əsasən, keçmiş sosialist ölkələri və Mərkəzi Asiya dövlətlərinə bazar iqtisadiyyatına keçid məqsədilə kredit və texniki yardım üçün kredit, həmçinin ianələr ayırıb.

Azərbaycan 1992-ci ildən mərkəzi ofisi Böyük Britaniyada yerləşən bu maliyyə qurumunun üzvüdür. Beynəlxalq maliyyə institutunun layihələrinin 50 faizi enerji sahəsini əhatə edir. Bankın səhm fondunda Azərbaycan Dövlət Neft Fondunun 100 milyon dollarlıq kapitalı saxlanılır.

***V. BAYRAMOV***
***XQ***

# Neft strategiyası iqtisadi tərəqqinin generatorudur

## 11 ayda "Əsrin müqaviləsi"ndən Neft Fonduna 6,4 milyard dollaradək vəsait daxil olub

**Azərbaycanda 2003-cü ildən başlayaraq enerji strategiyası keyfiyyətcə yeni mərhələyə daxil oldu. Bu mərhələdə Ulu öndərin müəllifi olduğu neft strategiyasının hədəfləri reallaşdı. Azərbaycan neft və qazının dünyaya çatdırılması marşrutları – Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kəmərləri istifadəyə verildi. Dünyanın ən böyük qaz-kondensat yataqlarından olan "Şahdəniz"də hasilat başladı. Azərbaycan 2007-ci ildən qaz idxal edən ölkədən qaz ixracatçısına çevrildi. Ölkədə neft hasilatı 2010-cu ildə pik səviyyəyə – 50,8 milyon tona çatdı.**



Bütün bunlarla bərabər, hazırda səmərəliliyi ilə diqqət çəkən "Şahdəniz" və "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənməsi növbəti mərhələyə daxil oldu, "Ümid", "Abşeron", "Qarabağ" yataqları kəşf olundu, güclü enerji tərəfdaşlığı quruldu, nəhəng Cənub Qaz Dəhlizi fəaliyyətə başladı. Azərbaycan təbii qazının ixrac marşrutları şaxələndirildi, tədarük bazarları region və Avropa ölkələrini əhatə etdi.

Adları çəkilən yataqlar bu ilin ötən aylarında da uğurla istismar olunub. Energetika Nazirliyinin operativ məlumatına əsasən, bu ilin 11 ayı ərzində Azərbaycanda 44 milyard kubmetr təbii qaz hasil edilib. "Mavi yanacağ"ın 11,7 milyard kubmetri "Azəri-Çıraq-Günəşli"dən, 24 milyard kubmetri "Şahdəniz"dən, 600 milyon kubmetri "Abşeron"dan, 7,7 milyard kubmetri isə SOCAR üzrə hasil olunub. Ötən ilin müvafiq dövrünə nisbətən 3,6 faiz, yəni 1,5 milyard kubmetr artımla qaz hasil edilib.

Hesabat dövründə xaricə qaz satışı 22,05 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 9 faiz çoxdur. Cari ilin yanvar–noyabr aylarında Avropaya 10,85 milyard kubmetr, Türkiyəyə 8,7 milyard kubmetr, Gürcüstana isə 2,5 milyard kubmetr qaz satılıb. Qeyd edək ki, bu müddətdə Türkiyəyə TANAP-la 5,1 milyard kubmetr qaz nəql olunub.

"Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara veriləndən 2023-cü il dekabr ayının 1-dək "Azəri-Çıraq-Günəşli"dən 215,2 milyard kubmetr, "Şahdəniz"dən isə 206,7 milyard kubmetr qaz hasil edilib. Bu dövrdə "Şahdəniz" yatağından hasil edilən qazın 146,4 milyard kubmetri ixraca yönəldilib.

Cari ilin yanvar–noyabr ayları üzrə ölkədə 27,6 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. Respublika üzrə neft hasilatının 16,4 milyon tonu "Azəri-Çıraq-Günəşli"nin, 3,9 milyon tonu (kondensat) "Şahdəniz"in, 240 milyon tonu isə (kondensat) "Abşeron" yatağının payına düşüb. SOCAR üzrə neft (kondensatla birlikdə) hasilatı 7,1 milyon ton təşkil edib. Hesabat dövründə 23,1 milyon ton neft (kondensatla birlikdə) ixrac olunub. Bunun 20,2 milyon tonu konsorsiumun, 2,9 milyon tonu isə SOCAR-ın payına düşüb.

"Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara veriləndən 2023-cü il dekabrın 1-dək 627,4 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. "Azəri-Çıraq-Günəşli"dən 583,3 milyon ton neft, "Şahdəniz"dən isə 44,1 milyon tona yaxın kondensat çıxarılıb. Bundan 2023-cü il dekabr ayının 1-dək 625,4 milyon tonu ixrac olunub.

Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Dərinsulu Günəşli" (AÇG) yataqlar blokunda yerləşən "Çıraq" platformasında istismara veriləndən 104 milyon tondan artıq neft və 24 milyard kubmetrə yaxın qaz hasil olunub. Energetika Nazirliyindən aldığımız məlumata görə, platformadan 2023-cü ilin birinci yarısı üçün ümumi hasilat gündə orta hesabla 23 min barel təşkil edib.

Yeri gəlmişkən, AÇG blokundan ilk neft 1997-ci ilin noyabrında "Çıraq" yatağından əldə edilib. AÇG yatağı Xəzər dənizinin Azərbaycan sektorunda ən iri neft-qaz yataqlar bloku hesab olunur və Bakıdan təxminən 100 kilometr şərqdə yerləşir. Yataqlar blokunun ehtiyatı 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanan zaman 511 milyon ton həcmində təxmin edilib. Sonradan isə bu göstərici 1072 milyard ton proqnozlaşdırılıb.

Xatırladaq ki, AÇG sovet dövründə kəşf edilsə də, tam dərinliklərində iş aparılmamışdı. Ölkəmiz müstəqil olandan sonra isə yataqların birgə işlənilməsi ilə bağlı xarici mütəxəssisləri dəvət etmək məsələsi qarşıya çıxmışdı. Lakin həmin vaxt bu təşəbbüsün əleyhinə çıxanlar Azərbaycanın sovet dövründən neft sənayesində təcrübəsinin olduğunu deyənlər idi. Əlbəttə, bu məqamı heç kim danmırdı. Amma dünyada belə bir təşəbbüsdən, yəni xarici mütəxəssislərin təcrübəsindən yararlanmaq kimi zəruri fəaliyyət də hamıya bəlli idi. Şübhəsiz ki, belə bir məsul vaxtda son qərar dahi rəhbər Heydər Əliyev tərəfindən verildi və və xarici şirkətlər respublikamıza dəvət olundu. Tez bir zamanda tender elan edildi, əsasən ABŞ, İngiltərə, Türkiyə şirkətlərinin ölkəmizə gəlmələri gerçəkləşdirildi. Danışıqlar Bakıda, İstanbulda, ABŞ-ın Hyuston şəhərində aparıldı və müsbət nəticələr əldə olundu.

Beləliklə, Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın tanınmış neft şirkətləri arasında 1994-cü ildə "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının işlənilməsi üzrə Hasilatın pay bölgüsü sazişinin imzalanması yenicə müstəqillik qazanmış ölkəmiz üçün tarixi hadisə idi. Bu müqavilə ümummilli lider Heydər Əliyevin gərgin zəhməti hesabına gerçəkləşdi. Ulu öndər həmin sazişə təkcə Azərbaycana firavanlıq, sosial rifah gətirəcək iqtisadi sənəd kimi baxmırdı. O, "Əsrin müqaviləsi"ni, həm də Azərbaycanın istiqlalını qoruyacaq saziş kimi dəyərləndirirdi.

Sonda qeyd edək ki, bu ilin yanvar–noyabr aylarında Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokundan əldə etdiyi gəlir açıqlanıb. ARDNF-nın yaydığı məlumata əsasən, qeyd olunan dövrdə fondun gəlirləri 6 milyard 353,8 milyon dollar təşkil edib.

***M.YAQUBZADƏ***
***XQ***

## Texniki Universitetdə "Enerji söhbətləri"

**Enerji Məsələlərini Tənzimləmə Agentliyinin (EMTA) həyata keçirdiyi "Enerji söhbətləri" layihəsi çərçivəsində Azərbaycan Texniki Universitetində (AzTU) seminar keçirilib. Tədbirdə Energetika Nazirliyinin, EMTA-nın nümayəndələri, AzTU-nun professor-müəllim heyəti, tədqiqatçılar, magistrant və tələbələr iştirak ediblər.**



Seminarı giriş sözü ilə açan AzTU-nun tədris işləri üzrə prorektoru, professor Nurəli Yusifbəyli qurumlararası qarşılıqlı əməkdaşlıq əlaqələrinin və bu kimi görüşlərin əhəmiyyətindən danışıb.

Agentliyin müşaviri Zeynab Kazımova AzTU ilə agentlik arasında mövcud əlaqələrdən söz açaraq bu əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını bildirib.

Energetika Nazirliyinin mətbuat sektorunun müdiri Cahid Mikayılov nazirliyin fəaliyyət istiqamətləri barədə görüş iştirakçılarına ətraflı məlumat verib.

Sonra EMTA-nın strateji planlaşdırma və innovasiyalar şöbəsinin müdiri Hikmət Həsənov "Kommunal xidmətlərin dövlət tənzimlənməsi", AzTU-nun doktorantı Elbəy Rüstəmzadə isə "Azərbaycanda enerji sisteminin idarə olunmasının enerji 4.0 modelinə transformasiyası" mövzularında təqdimatla çıxış ediblər.

Müzakirə formatında reallaşan seminar maraq doğuran sualların cavablandırılması ilə yekunlaşıb.

## İnflyasiya 9,4 faizə enib

**Bu ilin yanvar-noyabr aylarında istehlak qiymətləri indeksi ötən ilin müvafiq dövrünə nisbətən 109,4 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 110,4 faiz, qeyri-ərzaq məhsulları üzrə 108,9 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 108,6 faiz təşkil edib.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin noyabr ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 99,8 faiz, əvvəlki ilin noyabr ayına nisbətən 102,6 faiz olub. Hesabat dövründə ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 99,6 faiz, ötən ilin noyabr ayına nisbətən isə 101,5 faiz təşkil edib.

2023-cü ilin noyabr ayında qeyri-ərzaq məhsulları üzrə istehlak qiymətlərində əvvəlki aya nisbətən dəyişiklik qeydə alınmasa da, əvvəlki ilin eyni ayı ilə mqayisədə 3,1 faiz artım müşahidə olunub.

Ötən ay əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 99,9 faiz, ötən ilin noyabr ayına nisbətən 104 faiz olub. Noyabr ayında əvvəlki ayla müqayisədə əhaliyə göstərilmiş ödənişli xidmətlərdən ucuzlaşma, əsasən, hava nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma xidmətlərinin qiymətlərində, bahalaşma isə mənzillərin icarə haqlarında müşahidə olunub. Digər ödənişli xidmətlərin qiymətlərində isə ciddi dəyişikliklər baş verməyib.

## Nəqliyyat sektorunun ÜDM-də payı 6 milyard manatdan çoxdur

**Azərbaycan iqtisadiyyatının 6 faizi nəqliyyat sektorunun payına düşür. Bunu "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin departament müdiri Xudayar Həsənli "Güclü iqtisadiyyat üçün Azərbaycanda peşə təhsilinin inkişaf yolu: gələcəyə baxış" adlı konfrans çərçivəsində keçirilən "Dəyişən nəqliyyat və logistika xəritəsində iddialı yer tutan Azərbaycan: Sənayenin yeni bacarıq və səriştə ehtiyacları" mövzusunda panel iclasında deyib.**



O bildirib ki, 2023-cü ilin 10 ayında ÜDM-də nəqliyyat sektorunun payı 6,3 milyard manat təşkil edib. Avropa ölkələrində nəqliyyat sektorunun iqtisadiyyatda payının 8-9 faiz olduğunu vurğulayan departament müdirinin sözlərinə görə, Azərbaycanda bu rəqəmin hazırda 6 faiz təşkil etməsinə baxmayaraq, sözügedən sahədə imkanlar daha çoxdur.

***XQ***

Siyasi mozaika

# Dalanda həzm çətinləşsə də...

## Ən çətin vəziyyətdən, ən azı, bir çıxış yolu var

**Artur Konan Doylun məşhur qəhrəmanı xəfiyyə Şerlok Holms özünün deduksiya qabiliyyəti və intuisiyası sayəsində ən ağır cinayətlərin izini tapmağı, ən müəmmalı qətllərin üstünü açmağı bacarırdı. Onun daim uğur qazanmasının bir səbəbi də indi ilə keçmişin, reallıqla qeyri-reallığın uzlaşma nöqtələrinə bələd olması imiş.**



Belə məlum olur ki, siyasətlə həyat arasında paralellər aparmaq indi ilə keçmişi müqayisə etmək qədər maraqlı məşğuliyyətdir və hərdən tam yerinə düşür. Elə götürək keçmişə münasibət məsələsini. Keçmişinin onu köhnə çarpayıya bağlayan yapışqanlı lentlər olduğunu gözəl başa düşməyinə baxmayaraq, insan on, iyirmi, otuz il arxada qalanların ətəyindən əl çəkə bilmir. Qəddini dikəldib ayağa durmağa imkan verməyən həmin yapışqanlı çarpayının onun axırına çıxacağını anlasa da, iradəsini və cəsarətini toplayıb çoxillik yuxudan ayılmağa, hərəkətsizlik vakuumundan özünü xilas etməyə tələsmir. Sanki, hansısa ilahi qüvvə, yaxud ruhlar onu boğucu otağın əsarətindən, pərçim olunduğu çarpayının əsirliyindən qurtaracaq, div yuxusundan oyadacaq və yalnız bu yolla rahatlığına, azadlığına qovuşacaq. Yəni, möcüzə baş verəcək. İntəhası, möcüzəyə inananların son aqibəti heç də yaxşı olmur...

* * *

Ermənilərlə də eyni hal baş verir. Onlar da elə bil otuz illik yuxudan ayılıb reallığı qəbul etməkdə çətinlik çəkən adamın vəziyyətindədirlər. Baxmayaraq ki, üç il əvvəl Azərbaycan əsgəri onları qəflət yuxusundan oyatdı və acı reallıqla üz-üzə qoydu. Düzdür, tam ayılma bir qədər uzun sürsə də, son vaxtlar bunun əyani əlamətləri görünməkdədir. Gəlin belə güman edək ki, Nikol Paşinyanın son üç ildə danışıqlar prosesini uzatmaq, sülhə əngəllər yaratmaq cəhdləri Ermənistan cəmiyytini tədricən Azərbaycanla sülhə adaptasiyaya hazırlamağa xidmət edirdi. Bunu baş nazirin hərdən erməni identikliyinin təməl prinsiplərinin aktuallığı və məqsədyönlülülyü məsələsini qaldırması faktı ilə də izah etmək olar. Bu mənada şübhə yeri yoxdur ki, Ermənistanda ictimai şüurda çevriliş, o cümlədən qonşulara yanaşmada yeni münasibət təlqin etməyə qadir yeganə qüvvə məhz Paşinyanın partiyasıdır. Beş il bundan əvvəl hakimiyyətə gələn bu partiya bəlkə də erməni xalqının taleyində xoşbəxt gələcəyin təminatçısı rolunu oynayacaq. Beləliklə, hər şeydən göründüyü kimi, bütün tərəddüdlərə və ziddiyyətlərə baxmayaraq, erməni xalqı beyinlərində kökü çürümüş Azərbaycana düşmən münasibət paradiqmasını dəyişməyə hazırdır.

Hazırda yaranmış vəziyyətin ironik mənzərəsinə fikir verin: əgər son otuz ildə Ermənistan Qarabağı işğal etmişdisə, amma indi Qarabağ Ermənistanın işğalçısı rolunda çıxış edir. Bəli, bu gün keçmişdə qalmış Qarabağa deyil, ağır günlərini yaşayan Ermənistana azadlıq lazımdır. Azərbaycan öz zəfəri ilə yanaşı, həm də ona fiziki azadlığını vermiş oldu. Amma mənəvi və konstitusion azadlığı qazanmaqdan ötrü rəsmi İrəvan xeyli əziyyətə qatlaşmalı olacaq. Qonşulara qarşı ərazi iddiasının rəsmiləşdirildiyi konstitusiyanı dəyişmək isə bu yolda atılacaq ilk addım olmalıdır. Daxili etirazlara, xarici təhdidlərə baxmayaraq, Paşinyan bu addımı atmağa məhkumdur. Nə qədər ağır olursa-olsun, o, dövlətini və məğlubiyyəti udan, amma həzm etməyə çətinlik çəkən millətini bu dalandan çıxarmalıdır. Hər ikisinin mədə traktındakı qüsuru aradan qaldırmalıdır. Amma bu zaman baş nazir dalanda qalanın mərəzdən tez qurtulmasının müşkül məsələ olduğunu da unutmamalıdır.

Bu məqamda erməni siyasi ekspert Artur Martirosyanın Paşinyana xitabən dediyi sözləri xatırlatmağımız tam yerinə düşür: "Nikol erməniləri Qarabağ məsələsinin bağlanmasının və sülhün əldə edilməsinin daha doğru qərar olduğuna inandırmalıdır. İkitərəfli əlaqələr yaranmağa başladıqdan sonra İrəvan bir sıra iqtisadi dividentlər qazanacaq ki, bunu da insanlara müsbət nəticə kimi təqdim edəcəklər. Paşinyanın fikrincə, "erməni soyqırımı" məsələsi də bağlanmalıdır. O, türk dünyası üçün məqbul sayılacaq addımları atmağa çalışır. İnsanların düşüncəsini öyrənmək və müxalifətin nəbzini yoxlamaq üçün çeşidli yolları sınaqdan çıxarır. Məsələn, dərsliklərdə dəyişiklik vasitəsilə bunu etdilər, amma əhalinin narazılığından sonra ara bir qədər sakitləşdi. Amma geri çəkilmə olmayacaq".

* * *

Əlbəttə, geri çəkilməyə yer qalmayıb. Geridə haylara hər dəfə xatırlayanda ancaq xəcalət təri gətirəcək bədnam keçmiş var. Qarşıda isə Ermənistanı düşdüyü dalandan çıxaracaq sülh sazişi gözləyir. Onun imzalanması Paşinyanı da boğaza yığmış separatçıların, daşnakların, "Qarabağ klanı"nın, lobbiçilərin "aparıcı sütünlarına" son və sarsıdıcı zərbənin endirilməsi demək olacaq. Məhz onda "miatsum" pərdəli çox gizlinlər aşkara çıxacaq, qaranlıqların üzərinə gün işığı düşəcək.

Şerlok Holms obrazının məşhurluğu, oxucu kütləsinə təsiri həm də onunla izah olunur ki, dedektiv sonda həmişə ədalətin zəfər çalmasına, haqlının qalib gəlməsinə, zərərçəkənin təzminat almasına nail olur. Finaldan isə hamı məmnun qalır. Hətta ifşa olunan tərəf də...

***İ.HƏSƏNQALA***
***XQ***

# Azad olunmuş ərazilərin memarlıq proqramı

**Dövlət Şəhərsalma və Arxitektura Komitəsində Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin "İşğaldan azad olunmuş ərazilərdə şəhərsalmanın və memarlığın inkişafı" mövzusunda Qış Plenumu keçirilib.**




Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə hesabat dövründə görülən işlər haqqında geniş məlumat verib, plenum mövzusunun aktuallığından danışıb.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev işğaldan azad edilmiş şəhər və kəndlərin ərazi sənədlərinin hazırkı vəziyyəti, eyni zamanda, burada əhalinin dayanıqlı məskunlaşmasını təmin etmək məqsədilə şəhər və kəndlərdə yaradılan yaşayış infrastrukturundan söz açıb.

Qeyd olunub ki, bu günə qədər komitəyə azad olunmuş ərazilər üzrə 410-dan çox müxtəlif təyinatlı tikinti obyektinə



planlaşdırma sənədlərinin hazırlanmasında ən müasir və innovativ yanaşmaların tətbiq edildiyindən və hazırda bu layihələr əsasında aparılan genişmiqyaslı bərpa-quruculuq işləri barədə geniş məruzə edib, bu istiqamətdə bütün memar və layihəçilərin qarşısında duran əsas vəzifələri vurğulayıb.

Daha sonra məruzə ilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin İşğaldan azad olunmuş ərazilərdə layihələrin idarə edilməsi şöbəsinin müdir müavini Ramil Cahangirov çıxış edib. O, işğaldan azad olunmuş ərazilərin planlaşdırma ümumilikdə 6 min hektardan çox torpaq sahəsinin ayrılmasına dair müraciətlər edilib. Artıq 110-dan çox tikinti obyektinin şəhərsalma əsaslandırılması təsdiq edilib, 100-dən artıq obyektin tikintisinə icazə verilməsi üçün layihə-smeta sənədləri komitəyə təqdim olunub.

Sonda 2024-cü ilin yaz plenumunun işğaldan azad olunmuş ərazilərdə tarixi irsimizin bərpası və qorunub saxlanılması mövzusuna həsr olunması qərara alınıb.

***XQ***

Epidemioloji gündəlik

# Qızılcaya yoluxmadan necə qorunaq?

## *Bunun yolu peyvənd, maska və məsafədən keçir*

**"Qızılcaya yoluxmanı azaltmaq üçün əhali arasında kütləvi immunitet formalaşmalıdır. Maska olmadığı halda əhalinin sıx toplaşdığı yerdə xəstəliyə yoluxmaq mümkündür". Bu sözləri Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov qızılca ilə bağlı mediaya açıqlamasında deyib.**

O, valideynlərə müraciət edərək bildirib: "2015-ci ildən Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Azərbaycanda qızılcanın endemikliyinin olmadığını sübut edən sənəd verib. Bundan sonra ölkədə qeydə alınan yoluxmalar yalnız qonşu dövlətlərdən gəlmə hallar hesabına qeydə alınıb. Nəzərə almalıyıq ki, ölkəmizdə münbit şərait olarsa, qonşu ölkələrdən gəlmə hallarına yoluxmalar artacaq. Bunun olmaması üçün peyvəndlərin vurulması vacibdir. Çünki vaksinlər bir çox uşaq ölümlərinin qarşısını alır. Yaşayış yeri üzrə uşaq poliklinikalarına müraciət edin. Uşaqlara dövlət hesabına qızılca əleyhinə peyvənd vurulacaq".



**"Leyla" Klinikasının şöbə müdiri, pediatr Sahib Cəfərov qızılca ilə bağlı "XQ"-nin suallarına cavab verib:**

– Hazırda uşaqlarda müxtəlif dəri səpkiləri yayılıb, qızdırma, öskürək, burun axması müşahidə edilir. Qızılca çox vaxt adi qriplə səhv salınır və xəstə aktiv şəkildə virusu yayır. O qədər yoluxucu infeksiyadır ki, hətta məktəb və ya bağçada 1 xəstə uşağın olması kifayətdir ki, digərləri də yoluxsun. Bu zaman evin, müəssisənin, hətta əllərin dezinfeksiyası yoluxmamağa kömək etmir. Qızılcadan dezinfeksiya da, maska da qorumur. Qızılca virusu sağlam insanın boğazı ilə burnunun birləşdiyi hissəyə daxil olur və bu nahiyədəki limfa düyünlərinə çatır. Buradan qan dövranı sistemi vasitəsilə bütün bədənə yayılır. Müxtəlif orqanlarda hüceyrə sistemlərinə daxil olaraq çoxalmağa davam edir. Xəstəliyin 15–17-ci günlərində immun sistemin reaksiyası ilə virusun yayılması dayandırılır və immun sistem xəstəliklə mübarizəyə başlayır.

**– Qızılcanın əsas simptomları hansılardır?**

– Virusa yoluxduqdan təxminən 8–12 gün sonra xəstəliyin ilk əlamətləri görünür. Bu əlamətlər yuxarı tənəffüs yolları infeksiyasına bənzəyir. Burun axması, öskürək, halsızlıq, yüksək hərarət, boğaz ağrısı, ağızda, diş ətlərinin ətrafında, yanaqların içərisində kiçik boz rəngli ləkələr, gözün işığa həssaslığı kimi əlamətlər ortaya çıxır. Xəstəliyin 4–8-ci günlərində hərarət 39–41 dərəcə arasında dəyişir.

Qulaq və boyun arxasında səpkilər başlayır. Bu səpkilər əvvəlcə üzə, bədənə, sonra isə qol və ayaqlara yayılır. Qızılcada səpki qırmızı və qəhvəyi rəngdə olur. Bütün bədənə yayılan səpkilər təxminən 4 gün davam edir. Yetkinlərdə qızılca səpkiləri uşaqlara nisbətən daha az olur. Səpki azaldıqca, qızdırma da aşağı düşür. Ancaq xəstəliyin səbəb olduğu öskürək təxminən 10 gün davam edir. Qızılcaya yoluxan insan, adətən, bir həftə ərzində yaxşılaşmağa başlayır. Səpkiləri qaşımaq, yod sürtmək, qopartmaq, yumaq olmaz.

**– Amma bəzən xəstəlik təhlükəli ola bilir. Ağırlaşmalar müşahidə edilir.**

– Qızılca orqanizmin digər hissələrinə, məsələn, ağciyərlərə və ya beyinə yayılarsa, ciddi problemlər yaranar. Qızılcanın səbəb ola biləcəyi problemlər əsasən, sətəlcəm, meningit, korluq və karlıqdır. Qızılca virusu vərəm infeksiyasının yenidən aktivləşməsinə, pnevmoniyaya, boyundakı limfa düyünlərinin iltihabına, orta qulaq infeksiyasına (otit) və beyin iltihabına səbəb olur. Bu problemlər nadir hallarda müşahidə edilsə də, körpələr və immuniteti zəif insanlar risk altında sayılır. İmmuniteti zəif və əlavə xəstəliyi olan uşaqlar, 20–40 yaş arası insanlar qızılcanı daha ağır keçirir. Qızılcanın ağırlaşması ağciyər, böyrək, ürək, beyində özünü göstərir. Bütün xəstələr sahə ailə həkimi nəzarətində evdə tam təcrid olunmalıdır.

**– Qızılcaya yoluxmanı erkən aşkarlamaq mümkündürmü?**

– Yoxlama məqsədilə qan müayinə edilir. Nümunə qızılcaya yoluxan insan ilə təmasa məruz qaldıqdan ilk 72 saat ərzində götürülübsə və mənfi çıxıbsa, ikinci nümunənin götürülməsi tövsiyə olunur. Çünki virus inkubasiya dövründə olduğu üçün ilkin müayinədə qanda görünməyə bilər.

**– Qızılcanın müalicəsi necə aparılır?**

– Xəstəliyin xüsusi müalicəsi yoxdur. Amma sağalmaq üçün immuniteti gücləndirən müalicə üsullarından istifadə edilir. Xüsusilə, qida çatışmazlığı (yetərsiz qidalanma) olan və 2 yaşa qədər uşaqlara A vitamini əlavəsi verilməlidir. A vitamini qızılcada fəsadların inkişafının qarşısını alır və immuniteti gücləndirir. Yoluxanlara yataq rejimi və sulu yeməklər tövsiyə olunur. Göz qapaqlarını ılıq su ilə təmizləmək, yüksək hərarət zamanı qızdırma salan dərmanlar qəbul etmək olar. Otağın havasını nəm saxlamaq vacibdir. Qızılcaya yoluxan biri ilə təmasda olan hamilələrin isə tibbi məsləhət alması mütləqdir.

**– Uşaq yoluxarsa, yaxud xəstə ilə təması olarsa, nəyə diqqət yetirmək lazımdır?**

– Uşaq, ən azı, beş gün evdə dincəlməli, məktəbə, bağçaya göndərilməməlidir. Qızılca diaqnozu təsdiqləndikdən sonra məktəbə, uşaq bağçasına və iş yerinə məlumat verilməlidir. Qızılca uşaqla təmasda olanlar dərhal peyvənd edilməlidir. Evə kənar adamlar gəlməməlidir. Uşaq ayrı otaqda qalmalı və otağa xəstəyə qulluq edəndən başqa heç kim daxil olmamalıdır. Onun yatdığı otaq havalandırılmalı, rütubət səviyyəsinə diqqət yetirilməli və otağa günəş işığı düşməlidir. Xəstəyə qulluq edən şəxslər maskalardan istifadə etməlidirlər. Xəstə kök, portağal və yumurta kimi A vitamini ilə zəngin ərzaqlarla qidalanmalıdır.



**– Qızılcaya yoluxmamaq mümkündürmü?**

– Yoluxmamaq mümkün deyil. Qızılca, xüsusilə körpələr və azyaşlı uşaqlar üçün təhlükəli xəstəlikdir. Heç bir müalicəsi yoxdur. Qızılcadan qorunmaq lazımdır və bunun üçün peyvənd ən təsirli üsuldur. Peyvənd qızılca virusuna yoluxmuş insanlarda xəstəliyin şiddətini və yayılmasını əhəmiyyətli dərəcədə azaldır. Xəstəliklə mübarizənin bir yolu da karantindir. Hazırda yoluxma aktiv olduğu üçün peyvəndləmə də risklidir. Çünki yoluxan uşağın xəstəliyi gec, 10–14 gün keçəndən, səpkilər əmələ gələndən sonra bilinir. Yoluxmanın gizli dövründə peyvənd vurulsa, bu, ağır fəsadlar yaradar. Peyvəndin özü də virusun zəif törədicisi olduğundan, sağlam uşağa vurulması vacib şərtdir. Hazırda məktəb, bağça və universitetlərdə xəstəlik riskini həm də orta yaşlı təbəqə daşıyır. 20–30 yaşlı şəxslər, hətta uşaqlıqda peyvənd olunsalar da, qızılcaya yoluxa bilərlər. Lakin orqanizmin fərdi xüsusiyyətindən asılı olaraq, kimin bu xəstəliyi necə keçirməsi öncədən proqnozlaşdırıla bilməz.

Qeyd edək ki, Rumıniyada artıq qızılcaya 2000 nəfərin yoluxduğu barədə xəbərlər var. Rəsmi məlumatda deyilir: "Qızılcaya yoluxma hallarının həyəcanverici artımı, həmçinin yoluxmuş uşaqların pediatriya və yoluxucu xəstəliklər şöbələrinə yerləşdirilməsini nəzərə alaraq, Səhiyyə Nazirliyi 9–11 aylıq uşaqların peyvənd olunmasını təmin etmək məqsədilə ölkədə qızılca epidemiyası elan edib".

***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Yağ bazarının ağı çıxan oyunları

**Bu gün bazar-dükandan alıcının cibinə uyğun gəlməyən, kifayət qədər baha qiymətə satılan kərə yağının saxta, keyfiyyətsiz olması nə ilə bağlıdır? Bəs belə halda istehlakçının güvənəcəyi, alıb istifadə edəcəyi yağların istehsalını çətinləşdirən, mümkünsüz edən hansı amillərdir? Müvafiq nəzarət qurumlarının problemlə bağlı narazılıqları, şikayətləri qulaqardına vurmaqda, saxta kərə yağı istehsalçılarına qarşı mübarizədən yayınmaqda məqsədləri nədir? Apardığımız araşdırmalarda istehlakçılarda ciddi narahatlıq yaradan bu suallara cavab tapmağa çalışdıq.**

Əvvəlcə ölkənin yağ bazarında mövcud vəziyyətlə tanış olmaq məqsədilə paytaxtın ayrı-ayrı ticarət şəbəkələrinə baş çəkdik. Şükür, hər yerdə bolluqdur, dükan-bazarlarda alıcılara istənilən qiymətə, istənilən çeşiddə yağlar təklif olunur. Malını tərifləyən kim, onun hansı əziyyətlə başa gəldiyini söyləyən kim?! Səhərdən "filan qədər satıb, axırıdır" deyə, malın qiymətini ucuzlaşdırdığını söyləyənlər, çox alınacağı təqdirdə, bir qədər də ucuz qiymətə sata biləcəklərini israrla bildirirlər. Bu cür mənzərəyə paytaxtın 8-ci Kilometr, Keşlə, Suraxanı və digər bazarlarında daha çox rast gəlmək mümkündür. Əslində, buna heç bir sözümüz yoxdur. Çünki piştaxta arxasında dayanan hər bir satıcı malını istədiyi qiymətə təklif edə bilər, hətta keyfiyyəti aşağı olsa, belə.

Amma bazarlarda "təmiz kərə yağı", "təmiz nehrə yağı" və digər adlar altında satılan məhsulların fərqli qiymətləri istər-istəməz müəyyən şübhələrə yol açır. Məsələn, 8-ci Kilometr bazar kompleksində müştərilərə qiyməti 8 manatdan başlayaraq 20 manatadək olan yağlar təklif edilir. Bu zaman müştərini malın təmiz kərə yağı olduğuna inandırmağa cəhd göstərilir. Alıcının tərəddüdündən sonra isə məhsulun çiyə yağı olması etiraf edilir. Bununla belə, malın üzərində "təmiz nehrə yağı" qeydi isə istehlakçını aldatmaq cəhdindən başqa bir şey deyil. Üstəlik, bazarlarda yağ, süd və digər ağartı məhsullarının antisanitariya şəraitində satılması da olduqca narahatedici məqamdır. Antisanitariyadan söhbət düşmüşkən, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (QATA) bugünlərdə yaydığı açıqlamada Bakı şəhəri, Nizami rayonu, C.Naxçıvanski küçəsi, ev 50 ünvanında yerləşən, hüquqi şəxs "Nəzrin-E" MMC-yə məxsus bazarda qurumun əməkdaşları tərəfindən aparılmış planlı yoxlama barədə məlumat verilir. Bildirilir ki, baxış zamanı qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların, sanitariya norma və qaydalarının tələblərinin pozulduğu müəyyən edilib. Həmçinin qida təhlükəsizliyi qeydiyyatından keçmədən fəaliyyət göstərdiyi aşkar olunan (?) bazarın süd məhsulları satışı sahələrində müvafiq təmizlik işlərinin görülmədiyi, obliqat qrupuna daxil olan işçilərin ilkin və dövri tibbi müayinədən keçmədiyi və təlimlərə cəlb edilmədiyi, temperatur rejiminə əməl olunmadığı, məhsulların çirklənmədən və xarabolmadan mühafizə ediləcək şəraitdə saxlanılmadığı və üzərində etiket məlumatlarının göstərilmədiyi aşkarlanıb.




Məlumatda o da bildirilir ki, faktla bağlı məhdudlaşdırıcı tədbirlərin tətbiqi barədə qərar qəbul edilərək bazarda süd və süd məhsullarının satışı dayandırılıb, rəhbərliyi barəsində inzibati protokol tərtib edilib və icrası məcburi göstərişlər verilib. Bununla belə, apardığımız müşahidələr zamanı 8-ci Kilometr bazarının süd və süd məhsullarının satıldığı digər sahələrdə də analoji vəziyyətlə rastlaşdıq. Güman edirik ki, Qida Təhlükəsizliyi Agentliyi bu sahədə daha təsirli tədbirlər həyata keçirəcək.

Qida sektoru üzrə mütəxəssislər bildirirlər ki, bir kiloqram kərə yağı tərkibindən asılı olaraq 20-25 litr süddən əldə edilir. Buna görə də kərə yağının hazırlanmasında südün istehsal göstəricisi ilə bərabər, onun yağlılıq faizinin də yüksək olması əsas şərtdir. Təəssüf ki, ölkəmizdə bu məsələ ilə bağlı müəyyən problemlər yaşanır. Başqa sözlə, ölkədə heyvan sayına düşən məhsuldarlıq göstəriciləri aşağıdır. Belə ki, dünyada bir heyvandan ildə 10 ton süd əldə olunur. Azərbaycanda isə bu rəqəm 1,5 ton təşkil edir. Yeri gəlmişkən, ölkəmizdə bu məqsədlə kompleks tədbirlərin həyata keçirilməsi qarşıda duran mühüm vəzifələrdəndir. Bunun üçün, ilk növbədə, heyvandarlıqda cins tərkibi dəyişdirilməli, süni mayalanma genişləndirilməli, heyvanların yemləndirmə mədəniyyəti yenilənməli, yem bazası yüksək olmalıdır.

Mövcud şəraitdə isə ölkəmiz kərə yağının kənardan alınmasına üstünlük verir. Amma iş burasındadır ki, idxal olunan bu məhsulun da müəyyən hissəsi keyfiyyətsizdir. Ölkədə hazırlanan kərə yağı ilə bağlı mütəxəssis rəylərini də nəzərə alsaq, onda bu sahədəki vəziyyət haqqında aydın təsəvvür yaranar.

Qeyd edək ki, istehlakçılar bir çox hallarda bazarlarda, magistral yolların kənarlarında ucuz yağlara daha çox meyil göstərirlər. Mütəxəssislər isə yararsız kimi dəyərləndirdikləri həmin yağların işbazlar tərəfindən heyvan içliklərindən alınaraq qatıqla qaynadılıb "kərə yağı"na çevrildiyini bildirir və insan orqanizminin, xüsusən də ürək, qan-damar sistemini zədələdiyini deyirlər. Onlar bu cür saxta məhsulların trans yağlardan fərqlənmədiyini qeyd etməklə bərabər, belə içliklərin, çox güman ki, kustar üsulla əldə edildiyini söyləyirlər.

Qida ekspertlərinin fikrincə, bəzən marqarin yağlarının da kərə yağı adı ilə satılması hallarına rast gəlinir. Hər iki yağ arasında əsas fərq birincinin, yəni kərə yağının heyvan südündən hazırlanması, marqarinin isə bitki tərkibli olmasıdır. Marqarində, eyni zamanda, başqa emilqatorlar, su, duz və s. istifadə olunur. Kərə yağı isə tamamilə heyvan südündən hazırlanır, 80-82 faizi sırf yağdır, qalanı isə su və süddə olan proteinlərdir. Bu yağ insan üçün faydalıdır, çünki onun tərkibində doymamış yağlar daha çox olur, marqarində isə əsasən, doymuş yağlar üstünlük təşkil edir.

Ekspertlərin bu qənaətlərini AQTA-nın istehlakçı hüquqlarının müdafiəsi ilə bağlı keçirdiyi tədbirlərin nəticələri də təsdiqləyir. Belə ki, qurumdan bildirilib ki, aparılan yoxlamalar zamanı müxtəlif adlar altında istehsal olunan əmtəə nişanlı kərə yağları qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğun gəlmir. Yəni müayinə üçün götürülən nümunələrin Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyalarında 82,5 faiz duzsuz kərə yağı olduğu bəyan edilməsinə baxmayaraq, bitki mənşəli yağ olduğu aşkarlanır.

Yeri gəlmişkən, qida məhsulları üzrə mütəxəssislər deyirlər ki, yağın qatqılı və ya qatqısız olub-olmamasını ən sadə üsullarla da təyin etmək mümkündür. Məsələn, bir qab ılıq və ya isti suya bir yemək qaşığı yağ əlavə olunaraq yaxşıca qarışdırılır. Bu zaman yağ hissəcikləri mayenin üzərində nazik bir təbəqə əmələ gətirirsə və su ayrana oxşar şəkil alırsa, bu, məhsulun təmiz və qatqısız olduğunu göstərir. Əgər, yağ suyun üzərində yumru hissəciklər şəklində qalaraq mayeyə qarışmırsa, demək, qatqılıdır. Eyni zamanda, yağ tavada əridilərkən xırda şar dənəcikləri ilə qaynayırsa və azca ayranlı (yəni tortası) olursa, demək, qatqısızdır. Yağın tavada tez bir zamanda durulaşaraq qaynaması və kəskin qoxu verməsi isə onun tərkibində qatqıların olmasına dəlalət edir.

Bir məqamı da qeyd edək ki, son illər ölkədə yağ istehsalında qatqılardan daha çox istifadə olunur. Bu zaman xaricdən idxal edilən palma yağına üstünlük verilir. Belə yağın isə insan orqanizmi üçün təhlükəli olması bəllidir. Elə Avropa Ərzaq Standartları Agentliyinin məlumatında da 200 dərəcədən yüksək temperaturda qızdırılan palma yağının təhlükəli olduğu açıqlanır. Belə ki, bu yağın ərimə temperaturu bədən hərarətindən yüksək olduğundan orqanizm tərəfindən mənimsənilmir və tullantı şəklində toplanır. Tədqiqatçılar bildirirlər ki, palma yağından istifadə zamanı trans yağlar yaranır ki, bu da xərçəng riskini 50 dəfə artırır. Eyni zamanda, doymuş yağlar qrupuna aid olan palma yağı qanda təzyiqin yüksəlməsinə, infarkt, iflic, şizofreniyaya, qaraciyərin piylənməsinə və daxili orqanların xərçənginə səbəb olur.

Yeri gəlmişkən, 2018-ci ildə Avropa Birliyində tərkibində palma yağı olan qidaların etiketində bu barədə açıq yazılması haqqında qərar qəbul edilib. Bununla yanaşı, bəzi şirkətlər tərəfindən Avropa bazarı üçün istehsal edilən məhsulun tərkibində palma yağının olmaması ilə bağlı öhdəlik də götürülüb. Ümumdünya Səhiyyə Təşkilatı başda olmaqla bir çox sağlamlıq qurumları palma yağının insan orqanizmi üçün yaratdığı risklərə dəfələrlə diqqət çəksələr də, dünya qida sənayesinin nəhəngləri tərəfindən bu yağın işlədilməsinə dair heç bir məhdudiyyət tətbiq edilməyib.

Azərbaycan da palma yağından geniş istifadə edən ölkələr sırasındadır. Baxmayaraq ki, yerli yağ və şirniyyat məhsulları istehsalçılarının bəziləri palma yağından istifadə etmədiklərini israrla bildirirlər. O zaman belə bir sual ortaya çıxır: Bəs, ölkəyə bu qədər palma yağı nə məqsədlə idxal olunur? Bu arada, Dövlət Statistika Komitəsinin məlumatını diqqətə çatdırmaq yerinə düşər. Qurumun məlumatına görə, 2023-cü ilin 9 ayında respublikamıza 42 milyon 840 min dollar məbləğində 36 min 762 tondan çox palma yağı və onun fraksiyaları idxal olunub. Bu yağlar isə müxtəlif qida məhsullarının tərkibinə qatılaraq supermarketlərə yol tapır. Ekspertlərin fikrincə, hazırda dükan-bazarların piştaxtalarını bəzəyən müxtəlif məhsulların, ən azı, 70 faizinin tərkibində bu yağlar var. Uşaqların sevimlisi olan çipsi, suxarı və şokoladların istehsalında palma yağlarından geniş istifadə olunur. Eyni zamanda, təmizləyici və yuyucu vasitələrin tərkibi də bu cür yağlarla zəngindir.

Qeyd edilənlərə əsaslanıb deyə bilərik ki, insan sağlamlığına qənim kəsilən palma yağlarına qarşı mübarizə bu gün bütün dünyanı ciddi düşündürür. Ekspertlər isə bunun qarşısının alına bilməməsi səbəbini həmin yağların çox ucuz qiymətə başa gəlməsi ilə əlaqələndirir, palmanın ucuz məhsul əldə etmək üçün ən əlverişli xammal olduğunu bildirirlər. İstehsalçılar da, təbii ki, bu yolla daha çox qazanmağa çalışırlar.

Göründüyü kimi, aprdığımız müşahidələr, eləcə də ekspertlərin fikirləri ölkənin qida məhsulları bazarının yağ seqmentində vəziyyətin heç də ürəkaçan olmadığını təsdiqləyir. Vəziyyətdən çıxış yolu kimi, ilk növbədə, "təmiz kərə yağı" adı ilə dükan-bazara yol taparaq qidamıza qaşıq-qaşıq qatılan saxta, zərərli məhsulların qarşısının alınması məqsədilə sərhəddə və ölkə daxilində etibarlı qida təhlükəsizliyi sistemi qurulmalıdır. Bununla yanaşı, ölkədə istehlakçılara şübhələndikləri istənilən qida məhsulunu müayinə etdirmək imkanı yaradan müstəqil laboratoriyalar təşkil edilməlidir. Belə olarsa, hər bir istehlakçı keyfiyyətsiz məhsul istehsalında günahkar şəxsi, yaxud müəssisəni məhkəməyə verib təzminat ala bilər. Bununla da, qida təhlükəsizliyinə vətəndaş nəzarətinin təmini gerçəkləşər.

Eyni zamanda, Qida Təhlükəsizliyi Agentliyi təkcə ara-sıra yoxlamalar keçirib müəyyən saxta məhsul istehsalçılarının adlarını və müsadirə olunan məhsulların məhv edilməsini əhaliyə çatdırmaqla kifayətlənməməli, insan sağlamlığına qənim kəsilən şəxslərin və yaxud qurumların daha ciddi şəkildə cəzalandırılması barədə düşünməlidir. Qurum, həm də brendləri tanıtdırmaqla yanaşı, saxta yağları istehsal edənləri müəyyənləşdirərək onların markalarını davamlı şəkildə alıcıların diqqətinə çatdırmalıdır.

*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

## EKSPERT RƏYİ



**Eyyub HÜSEYNOV,**
**Azad İstehlakçılar Birliyinin sədri**

**Ölkənin əmtəə bazarında heyvan mənşəli yağ, yəni kərə yağı sektorunda daim problemlər olub. Bununla belə, etiraf etmək lazımdır ki, bu sahədə vəziyyət ildən-ilə yaxşılığa doğru dəyişir. Markalanma ilə istehlakçıların aldadılmasında da xeyli dəyişiklik var. Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi fəaliyyətə başladığı ilk gündən markalanma məsələsinə xüsusi diqqət yetirir.**

**Bununla belə, istehlakçı hər bir malın xüsusiyyətlərindən tam məlumatlı olmur. İstehsalçılar təşkil olunmuş bir qrupdur. Onların arxasında texnologiya, pul, hüquqşünaslar və mütəxəssislər dayanır. İstehlakçı isə bazarın şahı hesab olunsa da, təkdir. Kərə yağı almaq istəyən istehlakçı görür ki, malın üzərində inək şəkli və "Naturalnoe maslo" yazısı var. O daha heç nəyə baxmadan məhsulu alır. Düşünür ki, malın etiketindəki bu şəkil və yazı onun təmiz kərə yağı olduğuna dəlalət edir. Həm də düşünür ki, əvvəlki illərdə bu şəkildə etiketlənmiş yağlar yox idi. Bilmir ki, qanuna zidd olmayan bu şəkil və yazı, əslində, onun spred, yəni qarışıq yağ alması ilə də nəticələnə bilər.**

**Bəzən istehlakçılar çox ucuz qiymətə satılan kərə yağı barədə bizdən məlumat almaq istəyirlər. Qeyd edim ki, ölkəmizdə, ən yaxşı halda, 20 litr süddən 1 kiloqram kərə yağı almaq mümkündür. Bir şərtlə ki, həmin südün yağlılığı normal olsun. Ona görə də istehlakçı yağın 1 kiloqramının qiymətini südün qiyməti ilə müqayisə etdikdə paradoksal bir nəticənin şahidi olur. Haqlı olaraq fikirləşir ki, necə olur, ara dükanlarda, xüsusən də paytaxtda "İvanovka" adı ilə fəaliyyət göstərən, əslində, İvanovka ilə heç bir əlaqəsi olmayan 20-dək dükanda "nehrə yağı", "nənəmin yağı" adı ilə ucuz qiymətə yağlar satılır?!**

**Əslində isə, istehlakçı bu adlar altında aldadılır. Əslində ağ rəngdə, yumru formada olan yağların təmiz kərə yağı ilə heç bir əlaqəsi yoxdur. Onlar, əsasən, vaxtı ötmüş bitki yağlarının qarışığından nehrədə hazırlanır. Əlbəttə, belə yağların südlə müəyyən bir əlaqəsi var. Hazırda bazarda satılan bu cür məhsulların, guya, nənələrimizin kənddə hazırladığı yağ olması ilə bağlı fikir formalaşdırılır. "Nənə"nin istehsal etdiyi "təmiz nehrə yağı" isə aşağıdakı alqoritmlə başa gəlir: Təmiz südü sərdikdə ondan qaymaq əmələ gəlir. "Nənə" həmin qaymağı yığır. Altdakı süd isə üzsüz süd hesab olunur, tərkibi 94 faiz sudur. "Nənə" onun içərisinə ən ucuz, bəlkə də vaxtı ötmüş, atılmalı olan marqarinləri qarışdırıb 84 dərəcəyədək qaynadır. Lakin üzsüz südün tərkibi sudan ibarət olduğu üçün marqarinlə qarışmır. "Nənə" isə bu zaman qətiyyən bikef olmur. Həmin qarışığı "Homalizator" deyilən cihaza tökür. Onu bircinsli mayeyə, südə çevirir. Sərəndən sonra ondan qaymaq əmələ gəlir. Həmin qaymağı isə nehrədə çalxalayır. Bazarda nehrə yağı adı ilə ucuz qiymətə satılan yağlar məhz bu şəkildə ərsəyə gətirilir. Bu da ilk baxışdan kərə yağına çox bənzədiyindən onu ayırd etmək çətindir.**

**Bununla belə, ölkədə təmiz kərə yağları da mövcuddur. Bunların bir qismi xaricdən gətirilsə də, yerli istehsal da az deyil. Yeri gəlmişkən, 6 il əvvəl Yeni Zelandiyaya istehlakçı hüquqlarını qoruyan təşkilatların konqresinə gedən zaman oradakı həmkarlarımın köməyi ilə "Westland Milk Products" zavoduna baş çəkdim. Həmin zavodun istehsalı olan "Westgold" yağları uzun illərdir ki, Azərbaycana da göndərilir. Mən orada məhsulun istehsalından tutmuş Azərbaycan dilində markalanmasınadək bütün prosesi izlədim. Bundan əlavə, fermer təsərrüfatına getdim. Məlum oldu ki, burada heyvanlar qış mövsümündə tövlə şəraitində saxlanılmır, daim açıq havada otlayırlar. Orada heyvanlar mədəni əkilmiş yonca bitkisi ilə deyil, əsasən, yabanı halda bitmiş təbii otlarla qidalanır. Heyvanlara qış qulluğu olmadığı üçün onların südü, yağı çox ucuz başa gəlir. Bir sözlə, müşahidələrimə əsasən bu ölkədə təmiz kərə yağı istehsal edilməsinə tam əmin oldum.**

**Qeyd etdiyim kimi, yerli yağ istehsalçılarının da bir çoxu normal keyfiyyətdə məhsul istehsal edirlər. Bir çox yaxın ölkələrdən, xüsusən, Rusiya və digər yerlərdən gətirilən yağlarda problemlər həmişə olub. Başqa ölkələrdən – Almaniyadan və Fransadan gətirilən yağlar isə təmiz və keyfiyyətlidir. Yeri gəlmişkən, əvvəllər hətta Yeni Zelandiya yağlarının da saxta variantı Gürcüstandan ölkəmizə gətirilirdi. Yaxşı ki, artıq bunun da qarşısı alınıb.**

**Əgər istehlakçı dükana girib qablaşdırılmış, üstündə etiketi olan yağı almaq istəyirsə, məsləhət görürəm ki, məhsulu əlində sıxsın. Bu zaman hansı yağ onun əlinə bərk gəlirsə, o, daha çox kərə yağıdır. Donmuş halda olan kərə yağı kəsildikdə ovxalanıb tökülür, səlis kəsilmir. Təmiz kərə yağı sümük rəngində, bircinsli olur, kəsiləndə arasında başqa rənglər gözə dəymir. Şübhəsiz, bütün bunlar kərə yağını ilkin olaraq tanımaq üçün vizual olaraq nəzərə çarpan hallardır. Lakin əsl kərə yağı əridildikdə özünü tam büruzə verir. Bu, həm də özünü qoxusunda və ərimiş yağın həcmində özünü göstərir. Bəzən əsl kərə yağının qiyməti istehlakçıların narazılığına səbəb olur. Əslində isə normal kərə yağının qiyməti 20-24 manat olmalıdır.**




## EKSPERT RƏYİ



**Leyla ZÜLFÜQARLI,**
**həkim-dietoloq**

**Hazırda Azərbaycanın qida sənayesi bazarında çox ciddi nöqsanlar var. Hətta mövcud vəziyyəti qida terroru kimi də xarakterizə etmək olar. Bu sahədə ən böyük nöqsanlar, təhlükəli hallar yağ bazarında müşahidə olunur. Düşünürəm ki, ticarət şəbəkələrində satılan yağlarla bağlı ciddi araşdırma aparılmalıdır. Bu zaman aşkar olunan saxta, insan orqanizmi üçün təhlükəli yağlar dərhal satışdan yığışdırılmalı, onların yerini daha sağlam məhsullar əvəz etməlidir.**

**İndi əhalini bir məsələ daha çox düşündürür: hansı yağlara güvənmək olar? Bu suala isə birmənalı cavab vermək çətindir. Çünki daxili bazarda yağlar həddindən artıq çoxdur. Həmin məhsulların əksəriyyətinin isə mənşəyi və tərkibi qeyri-müəyyəndir. Bəs, bu cür yağların ziyanı nədir? Hər şeydən əvvəl qeyd etmək istəyirəm ki, yağ keyfiyyətsiz olduqda onu qəbul edərkən orqanizmə çoxlu miqdarda doymuş və doymamış yağ turşuları daxil olur. Trans yağlar və spred yağlar müəyyən biokimyəvi proseslər nəticəsində yarımparçalanmaya məruz qalır. Bu zaman onların tərkibində orqanizm üçün yad maddələr formalaşır. Bunlar da qatqı maddəsi olaraq toksin kimi orqanizmdə qalır.**

**Son illər ölkəmizdə ürək, qan-damar xəstəlikləri və ürək tutmalarının artması müşahidə olunur. Bu zaman şuntlamalar edilir, stend qoyulur. Bunun da əsas səbəbi damarların mənfəzinin daralması və tıxanıqlığın yaranmasıdır. Bütün bunlar keyfiyyətsiz yağların törətdiyi fəsadlardır. Keyfiyyətsiz yağlar təkcə ürək-damar xəstəliklərinə, kardioloji aspektdən ürəyin zədələnməsinə səbəb olmur, eyni zamanda, şəkərli diabetin yaranmasına, piylənmənin yüksək dərəcəyə gəlib çatmasına, təzyiqin yüksək olmasına, eləcə də aşağı ətraflarda hərəkət məhdudiyyətinə gətirib çıxarır. Hərəkət məhdudiyyəti ilə əlaqədar insan oturaq həyata keçir ki, bu da bir sıra xroniki xəstəliklərə yol açır.**

**Tərkibində olan trebesidlərin və doymuş yağ turşularının zəncirində parçalanmanı əmələ gətirən hidrogen atomlarının çoxalmasına səbəb olan trans yağlar orqanizmdə "HDL" xolesterini azaldır, əksinə "LDL", yəni pis xolesterini çoxaldır. Yeri gəlmişkən, Ümumdünya Səhiyyə Təşkilatının müəyyən etdiyi normativə əsasən, orqnizmdə "LDL" maksimum 130-140-ın üzərində olmalıdır Amma son zamanlar apardığım müşahidələrdən məlum olur ki, "LDL" 160-ın üzərində, yəni pis xolesterini yüksək olan, risk qrupuna aid insanlar var. Nəticə olaraq həmin şəxslərdə müəyyən müddətdən sonra yaranan xolesterid damar mənfəzinin həddindən artıq daralmasına gətirib çıxarır. Bu zaman bütün qanı orqanizmə daşıyan damarlar ən vacib resurs olan oksigeni, hemoqlobin-oksigeni hüceyrələrə, toxumalara çatdıra bilmir. Bu da insanda bioloji ölümü tezləşdirə bilər. Belə təhlükələrlə üzləşməmək üçün isə hər birimiz keyfiyyətli məhsullarla qidalanmalıyıq.**

Xatirələrdə yaşayanlar

# Teatr sənətimizin parlaq ulduzu – Ulduz Rəfili

**Dünya şöhrətli bəstəkarımız Qara Qarayev deyib ki, əgər insan öz dövrünün amalları və duyğuları ilə yaşayırsa, həm də həmin amal və duyğulara dövrün tələblərinə cavab verən müvafiq dəqiq forma tapırsa, bu, novatorluqdur". Bu mənada ilk milli peşəkar qadın teatr rejissoru olmuş Ulduz Rəfili–Əliyeva əsl novatordur.**



O, böyük bir nəslin zəngin və yüksək mədəniyyətli nümayəndəsidir. Atası Saleh bəy Oksford Universitetinin hüquq fakültəsini bitirib. Anası Dilşad xanım isə Gəncə gimnaziyasında təhsil alıb və orada müəllim kimi işləyib. O gimnaziyada ki, onun yaradıcısı və direktoru Dilşad xanımın qardaşı Cavad bəy Rəfibəyli idi.

Keçən il Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında və Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında unudulmaz professor, Əməkdar incəsənət xadimi Ulduz Rəfilinin anadan olmasının 100 illiyinə həsr edilmiş musiqili elmi konfras keçirilmiş və vaxtilə onun quruluş verdiyi teatr tamaşası göstərilmişdir.

Ulduz xanımın həyatından bəzi maraqlı hadisələri xatırlatmaq istəyirəm...

Uzun müddət Moskvada yaşamağa məcbur olan Ulduz xanım bacısı Səmayə xanımla birlikdə 1945-ci ildə Bakıya qayıdırlar. Onun əmisi oğlu, görkəmli ədəbiyyatşünas alim, professor Mikayıl Rəfili Ulduzun ssenariləri, pyesləri və şeirləri ilə yaxından tanış olan kimi ona deyir ki, sən mütləq Azərbaycan Dövlət Teatr İnstitutunun rejissorluq fakültəsində oxumalısan. O, imtahanları uğurla verir, təhsil illərində fərqlənir və ali məktəbi fərqlənmə diplomu ilə bitirir. Diplom işi Sezar Solodarın "Ulduzlar aləmi" dramına verdiyi quruluş olur. Beləliklə, Ulduz Rəfili ilk Azərbaycan qadın rejissoru kimi yaradıcılıq fəaliyyətinə başlayır. O, 1952-ci ildən Gənc Tamaşaçılar Teatrında işləməyə başlayır. İlk rejissor işlərində öz üslubunu yaradır və getdikcə bu üslubu daha da zənginləşdirir.

Ulduz xanım Rəfili 1975-ci ildə Üzeyir bəy Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasına (indiki Bakı Musiqi Akademiyasına) işləməyə dəvət olunur. Vokal və opera hazırlığı kafedrasının professoru kimi ömrünün sonuna qədər bu müqəddəs sənət ocağında pedaqoji fəaliyyətlə məşğul olaraq, gözəl kadrlar yetişdirir.

O, S.Raxmaninovun "Aleko", P.Çaykovskinin "İolanta", F.Əmirovun "Sevil", V.A. Motsartın "Fiqaronun toyu" və s. əsərləri zövqlə, sənətkarlıqla səhnələşdirir. Mən öz tələbələrimlə birgə bu əsərlərin premyeralarında iştirak edərək tamaşaların necə böyük anşlaqlarla qarşılanmasının şahidi olmuşam. Yaxşı yadımdadır, bir dəfə müzakirə zamanı alimlərimizdən biri dedi ki, Ulduz Rəfili bir yaradıcı şəxsiyyət kimi həmişə axtarışdadır. Dramaturji baxımdan və məzmunca müxtəlif əsərlərə orijinal quruluşlar verib. Bir də alim qeyd etdi ki, Ulduz xanım Milli və Avropa klassiklərinin faciə və komediyalarında fəlsəfi-psixoloji düşüncələri, ideyaları tamaşanın ali məqsədinə çevirməyi ustalıqla bacarır. İtalyan dramaturqu Qoldoninin "İki ağanın bir nökəri" və italyan yazıçısı – romantik Viktor Hüqonun "Səfillər" əsərini Azərbaycanda ilk dəfə tamaşaya hazırlayan məhz Ulduz Rəfili olmuşdur.



Əslində, bu kimi əsərlərin siyahısını uzatmaq da olardı. Mən isə oxucularımıza Ulduz xanımın insanlara olan səmimi və xoş münasibətindən bir hadisəni xatirə kimi söyləmək istərdim. Bir gün anam Müsalət xanım Quliyeva mənə dedi ki, Ulduz xanım sənin həmkarındır, ona zəng et, evinə gedək. Xatırladım ki, Ulduz xanımın həyat yoldaşı Qurban Əliyev uzun illər Respublikanın Ali və Orta İxtisas Təhsili naziri olub. Anamın bir xahişi vardı. O istəyirdi ki, mənim rəssam qardaşım Fədlunu nazirimiz işə düzəltsin. Açığını deyim ki, mən çox narahat idim. Onların evinə getməyə utanırdım. Axır ki, anamın xahişini yerinə yetirdim. Ulduz xanım telefonun dəstəyini özü götürdü və çox məlahətli səslə dedi: "Buyurun, sabah axşam saat 7-də sizi gözləyirəm".

Səhəri gün biz onlara qonaq getdik. Qapını Ulduz xanım açdı və sevinclə dedi: "Mənim əziz bacılarım, xoş gəlmisiniz, buyurun qonaq otağına. Böyük bir masanın üstündə müxtəlif şirniyyatlar və mürəbbələr düzülmüşdü. Biz əyləşdik və bizə çay süfrəsi açıldı. Ulduz xanım dedi ki, Qurban müəllim iş yoldaşları ilə görüşüb hansısa məsələni həll etməlidirlər.Təxminən, 20 dəqiqədən sonra Qurban müəllim gəldi və o da bizi sevinclə salamlayaraq dedi: "Bu gözəl və ləzzətli şirin məhsulların (şəkərbura, paxlava, tort və s.) hamısını Ulduz özü hazırlayıb, o, olduqca qabiliyyətli və işgüzar xanımdır. Qapımız hamı üçün açıqdır". Bir qədər sonra anam gəlişimizin məqsədini söylədi. Qurban müəllim cavab verdi ki, qoy, sabah Fədlun gəlsin yanıma. Beləliklə, qardaşım rəssam kimi işə başladı...

Ulduz xanım olduqca diqqətli və məsuliyyətli bir insan idi. O 1983-cü il mayın 30-da A.M.Şərifzadə adına Aktyor evində mənim atam – görkəmli dövlət və ictimai xadim, yazıçı və teatrşünas (qeyd olunmuş bu sözlər memorial lövhənin üstündə yazılıb) Əfəndiyev Məmməd Sadıx Mirzə Əhməd bəy oğlunun 80 illik yubileyinə gəlmiş və bizim ailəmizi gözəl gül dəstəsi ilə təbrik etmişdir.

Gözəl insan, dərin bilikli professor, Əməkdar incəsənət xadimi Ulduz Rəfili–Əliyevanın onu tanıyan hər kəsin yaddaşında belə silinməz izlər buraxdığına əminəm. O, daim xoş duyğularla yada salınır.

Dahi fransız yazıçısı Viktor Hüqo vaxtilə demişdir: "Ya elə yaz ki, səni oxusunlar, ya da elə yaşa ki, səndən yazsınlar". Fikrimizcə, onun haqqında sanballı bir monoqrafiya da yazılmalıdır.

***İmruz ƏFƏNDİYEVA,***
***sənətşünaslıq doktoru, professor,***
***Əməkdar incəsənət xadimi***

**REDAKSİYADAN:** ***Təəssüf ki, Azərbaycanda teatr sənətinin, musiqinin, incəsənətin və mədəniyyətin inkişafında böyük xidmətləri olmuş, 50-dən çox teatr tamaşasına quruluş vermiş unudulmaz bir insanın vaxtilə yaşadığı Bakının Lermontov küçəsindəki 107 nömrəli binaya nə xatirə lövhəsi vurulmuş, nə də Bakı şəhərində onun adına bir küçə var. Ümid edirik ki, əlaqədar təşkilatlar bu məsələnin həllinə köməklik göstərəcəklər.***

# "Sarı gəlin"in izi ilə

**Bu yaxınlarda Nizami Kino Mərkəzində "Qərbi Azərbaycan: maddi və mədəni irsimiz" layihəsi çərçivəsində araya-ərsəyə gəlmiş "Sarı gəlinin sorağında" sənədli filmi təqdim olunub. Tammetrajlı filmin süjet xətti məşhur xalq mahnısının mənşəyi, onun yaranma tarixçəsi ilə bağlı xalq arasında yaranmış rəvayətlərin, əfsanələrin üzərində qurulsa da, əsas məqsəd Qərbi Azərbaycan ərazisindəki maddi-mədəni irsin təbliğidir.**



Layihənin rəhbəri gənclik illərimizdən Sumqayıt ədəbi mühitində bir yerdə olduğum, şeirlərini və publisistikasını hər zaman maraqla oxuduğum Füzuli Sabiroğludur. Onunla görüşümdə Etnoqrafiya və folklordan başlıca ideyaya nail olmaq üçün köməkçi vasitə kimi istifadə edilmiş filmin seyrçilərə olduqca xoş təəssürat bağışladığını söylədim və bir daha təbriklərimi çatdırdım. Çay süfrəsi arxasında dostum mənə filmin çəkiliş prosesindən və ümumi ideyasından danışdı.



– "Qərbi Azərbaycan: maddi və mədəni irsimiz" layihəsi iki hissədən ibarətdir. Layihə çərçivəsində həm "Sarı gəlin"in sorağında tammetrajlı sənədli filmini, həm də "western-azerbaijan.az" saytını ərsəyə gətirdik. Həm film, həm də sayt Azərbaycan dili ilə yanaşı, ingilis və erməni dillərində də təqdim olunacaq. İstəyirik ki, Qərbi Azərbaycan torpaqlarındakı maddi-mədəni irsimizlə gənclərimizi tanış edək, bu mövzuya maraq göstərən xarici vətəndaşlara əzəli yurd yerlərindəki tarixi izlərimiz haqqında informasiya çatdıraq.

Filmdə 1930-cu illərdə İrəvanda tarixi abidələrimizin dağıdılması, yeni şəhər yaratmaq adı altında şəhərin məhv edilməsi ilə bağlı kadrlar yer alıb. Filmin bədii səhnələrində Qıpçaq qızının (Sarı gəlin) obrazını Aytac Zeynalova, Oğuz igidi (Sinan) obrazını isə İsmayıl Cəfərov canlandırıb. Filmdə həmçinin vaxtilə Qərbi Azərbaycanda yaşamış və işləmiş, orada mövcud olmuş Azərbaycan ədəbi-mədəni mühitinə, o ərazilərin tarixinə yaxından bələd olan, bu istiqamətdə araşdırmalar aparan tədqiqatçıların da fikirlərinə yer verilib. Həmçinin, 1930-cu illərə dair arxiv kadrlarından və Moskvadan əldə edilmiş materiallardan da istifadə etmişik.

Söhbət zamanı öyrəndim ki, ekran işinin çəkilişləri Bakıda, İsmayıllıda, Gədəbəy və Kəlbəcərdə aparılıb. Füzuli müəllim dedi ki, quruluşçu rejissor Mübariz Nağıyev, quruluşçu operator Fahir Səmədoğlu, prodüsser Əli İsa Cabbarovla birlikdə çətin yaradlıcılıq işinin öhdəsindən layiqincə gəlməyə çalışıblar. Layihənin rəhbəri Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri, Xalq artisti Rasim Balayevdir.

Yeni sayta glincə isə qələm dostum bunları bildirdi:

– Vətən müharibəsindəki möhtəşəm zəfərimizdən sonra Qərbi Azərbaycan mövzusu daha böyük aktuallıq qazanıb. Azərbaycan Prezidenti İlham Əliyev ötən il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında Qərbi Azərbaycandan olan ziyalılarla görüşündə tarixi torpaqlarımıza qayıdış konsepsiyasının hazırlanmasının vacibliyini qeyd etdi. Bu baxımdan indiki Ermənistan adlanan tarixi Azərbaycan torpaqlarının, orada xalqımızın əsrlərlə yaratdığı maddi-mədəni irs nümunələrimizin həm yeni nəslə tanıdılması, həm də bu həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması mühüm əhəmiyyət kəsb edir.

Sözügedən layihə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə Azərbaycan Kinematoqrafçılar İttifaqı tərəfindən həyata keçirilir. Məramımız son 200 ildə ermənilər tərəfindən dağıdılmış maddi-mədəni irsimiz haqqında həqiqətləri müxtəlif dillərdə hazırlanmış saytın köməyi ilə – tarixi mənbələr, rəsmi sənədlər, xəritələr, nadir foto və video materiallar, ikiölçülü və üçölçülü qrafik təsvirlər vasitəsilə dünyaya çatdırmaqdır.

Layihənin gələcəkdə daha da zənginləşdirilməsi nəzərdə tutulur. Qərbi Azərbaycan ərazilərinin inzibati və mədəni mərkəzi olan İrəvan şəhəri də daxil olmaqla, bütün mahallarda əcdadlarımızın yaratdığı qalalar, məscidlər, saraylar, habelə xalçalar, tətbiqi sənət nümunələri, ədəbiyyat, teatr, təhsil və mətbuat haqqında məlumatlar saytda geniş yer alacaq.

***Əli NƏCƏFXANLI***
***XQ***

Ölüm sevinməsin qoy!

# Xalq artisti Ramiz Məlik son mənzilə yola salınıb



**Xəbər verildiyi kimi, görkəmli teatr və kino aktyoru, Xalq artisti, Dövlət mükafatı laureatı, "Şöhrət" ordenli Ramiz Məlik 2023-cü il dekabrın 14-də dünyasını dəyişib. Paytaxtın Heydər Məscidində keçirilən vida mərasimində mərhumun ailə üzvləri, sənət dostları, ölkənin mədəniyyət xadimləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.**

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının bədii rəhbəri Mehriban Ələkbərzadə mərasimdə görkəmli aktyorun milli mədəniyyətimizə göstərdiyi səmərəli xidmətdən danışıb: "Ramiz Məlik çağdaş səhnəmizin istedadlı və fədakar simalarından biri idi. Uzun müddət idi xəstəlikdən əziyyət çəkirdi, amma biz ümid edirdik o qayıdacaq. Hətta teatrda rol da ayırmışdıq. Baxmayaraq ki, xəstəliyi ağır idi, amma yaşamaq və sənət eşqi yüksək idi. Təəssüflər olsun ki, onu itirdik. Ramiz Məlikin sənət irsi dogma xalqına layiqli yaradıcılıq töhfəsi kimi daim yaşayacaq, xatirəsi əbədi olaraq yaddaşlarda qalacaq".



Xalq artisti Hacı İsmayılov bir çox tamaşalarda Ramiz Məliklə birgə oyununu, xüsusən "Ad günü" filminə çəkilişləri xatırlayıb: "Ramiz Məlik çox bacarıqlı, çalışqan və iradəli aktyor idi. Uzun müddət xəstə olmasına baxmayaraq, sənət eşqi ilə yaşayır, yenidən səhnəyə can atırdı. Təəssüf ki, bu, mümkün olmadı. Akademik Milli Dram Teatrının kollektivi və Azərbaycan Teatr Xadimləri İttifaqı adından Ramiz Məlikin ailəsinə, doğmalarına başsağlığı verirəm".

Azərbaycan Dövlət Akademik Musiqili Teatrının direktoru Əliqismət Lalayev isə Ramiz Məlikin hər zaman tamaşaçıların sevimlisi olduğunu, rəngarəng və təsirli obrazlar yaratdığını diqqətə çatdırıb: "Bizim Ramiz müəllimlə yaxşı münasibətimiz olub. Bir aktyor kimi onu çox sevmişəm. Bu gün onu ürək ağrısı ilə son mənzilə yola salırıq".

Əməkdar artist Ayşad Məmmədov isə mərhum sənətkarla ilk dəfə Hüseyn Cavidin yubiley mərasimində təqdim edilən tamaşada eyni səhnəni bölüşdüyünü deyib: "O, Hüseyn Cavidi, mən isə Arif obrazını oynayırdım. O da vaxtilə Arif rolunu oynamışdı. Buna görə sonralar zarafatla məni Arif deyə çağırırdı. Daha sonra Cəfər Cabbarlının "Yaşar" pyesində birgə oynamışıq. Allah rəhmət eləsin, ruhu şad olsun".

Mərasimdə bildirilib ki, Ramiz Ağarza oğlu Məlik 1943-cü il avqustun 4-də Bakı şəhərində anadan olub. 1967-ci ildə Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsini bitirib, həmin ildən taleyini Akademik Milli Dram Teatrı ilə bağlayıb. Ramiz Məlik ötən illər ərzində bu sənət ocağının səhnəsində dünya və milli dramaturgiya nümunələri əsasında hazırlanmış tamaşalarda 100-ə yaxın rolda uğurla çıxış edib. Onun aktyorluq məharəti kino və televiziya teatrı sahəsində də parlaq əksini tapıb. "Mehman", "Bir cənub şəhərində", "O qızı tapın", "Sevinc buxtası", "Babək", "Qəm pəncərəsi", "Qara gölün cəngavəri" və s. bədii, "Şərqin səhəri", "Günahsız Abdulla", "Kimin sualı var?" və s. televiziya tamaşalarında yaratdığı obrazlar onun orijinal yaradıcılıq yolunun yadigarlarıdır. Bacarığını rejissorluqda da sınayıb.Uzun illər film dublyajına böyük zəhmət sərf edib.

Milli teatr və kino sənəti sahəsindəki xidmətləri yüksək qiymətləndirilən Xalq artisti Ramiz Məlik 1984-cü ildə respublikanın Dövlət mükafatına, 2019-cu ildə "Şöhrət" ordeninə, 2023-cü ildə isə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"na layiq görülüb. 2005-ci ildən Prezidentin fərdi təqaüdçüsü idi.

**Görkəmli aktyorun sənət dostları da XQ-yə açıqlamalarında milli səhnəmizə üz vermiş ağır itki barədə kədər və hüznlərini yanğı ilə ifadə ediblər.**

**Sənubər İsgəndərli:** – Ramiz Məlik həyatda da, sənətdə də səmimi, məğrur, görkəmli bir şəxsiyyət idi. Onun sənət yolu canlı örnəkdir. Layiqli sənət irsi qoyub getdi. Onun adı milli teatrımızın tarixində əbədi qalacaq.

**Nurəddin Mehdixanlı:** – Təəssüf ki, biz bu gün Ramiz Məliki itirdik. Xeyli müddət idi ki, xəstə idi, müalicə olunurdu, ona xüsusi diqqət, qayğı ilə yanaşılırdı. Ramiz Məlik Azərbaycan kino və teatrının görkəmli xadimi idi. Ramiz Məliklə uzun illər tərəf-müqabil olmuşuq. O, işinə, sevdiyi peşəsinə məsuliyyətli idi. Xatirəsi sənətsevərlərin qəlbində əbədi yaşayacaq. Allah rəhmət eləsin.

Vida mərasimindən sonra Xalq artisti Ramiz Məlik çoxsaylı sənətsevərin iştirakı ilə II Fəxri xiyabanda son mənzilə yola salınıb.

***XQ***

BEYNƏLXALQ HƏYAT

# Rusiya Prezidenti Türkiyəyə səfər edəcək



**Gələn ilin əvvəllərində Rusiya Prezidenti Vladimir Putinin Türkiyəyə səfəri planlaşdırılır. Bu barədə dövlət başçısı Rusiyada "Vladimir Putinlə ilin yekunları" proqramında birbaşa bağlantı zamanı türkiyəli jurnalistə açıqlamasında bildirib. Xəbəri "Anadolu" agentliyi yayıb.**

Məlumatda sonra deyilir ki, Qəzza bölgəsində vəziyyətə münasibətini bildirən Rusiya Prezidenti deyib: "Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Qəzzada vəziyyətin bərpasında xüsusi liderlik rolunu qeyd etmək istəyirəm. O, sözsüz ki, bu faciəyə diqqəti cəlb edən və vəziyyətin yaxşılığa doğru dəyişməsi, uzunmüddətli sülh üçün şərait yaradılması üçün əlindən gələni edən dünya liderlərindən biridir. Bu, aydındır. Allah ona cansağlığı versin".

V.Putin Qəzzada baş verənləri "faciə" adlandırıb və vurğulayıb ki, Rusiya da Türkiyə kimi hesab edir ki, Fələstində paytaxtı Şərqi Qüds olmaqla dövlət qurulmalı, İsrail-Fələstin münaqişəsinin həlli üçün fundamental zəmin yaradılmalıdır. "Biz Prezident Ərdoğanla bu məsələlərlə bağlı daim əlaqədəyik. Bizim mövqelərimiz oxşardır. Düşünürəm ki, biz onunla görüşə biləcəyik", - deyə V.Putin qeyd edib.

Rusiya Prezidenti əlavə edib ki, bir müddət əvvəl Türkiyəyə səfəri planlaşdırılmışdı: "Prezident Ərdoğanın öz qrafiki ilə əlaqədar səfər baş tutmadı. Ümid edirəm ki, gələn ilin əvvəllərində Türkiyəyə səfərimi həyata keçirə biləcəyəm".

Qeyd edək ki, bu il "Vladimir Putinlə ilin yekunları" proqramı ənənəvi birbaşa bağlantı və böyük mətbuat konfransını özündə birləşdirib. İlk dəfə belə format 2021-ci ildə tətbiq olunub. Rusiya Prezidenti canlı yayımda 2023-cü ilə yekun vurub, jurnalistlərin və əhalinin çoxsaylı suallarını cavablandırıb. V.Putinin ilk böyük mətbuat konfransı 2001-ci ildə təşkil olunub. Ötən dövr ərzində o, 17 dəfə illik yekun mətbuat konfransında iştirak edib.

Xatırladaq ki, Vladimir Putin Rusiyada 2024-cü ilin martında keçiriləcək prezident seçkilərində iştirakını təsdiqləyib. V.Putin birbaşa yayımda, həmçinin bildirib ki, Rusiya ilə Ukrayna arasında sülh xüsusi hərbi əməliyyatın məqsədlərinə tam nail olunduqdan sonra mümkündür.

V.Putin deyib ki, xüsusi hərbi əməliyyatın məqsədləri dəyişmir. Bu, Ukraynanın denatifikasiyası, demilitarizasiyası və neytral statusudur. Eyni zamanda, V. Putin qeyd edib ki, ölkədə ümumi hərbi səfərbərlik elan olunması gözlənilmir.

***XQ***

# Şimali Avropadan Ukraynaya növbəti dəstək



**Dünən Şimali Avropa dövlətləri – Danimarka, İslandiya, Norveç, Finlandiya və İsveç liderləri Norveçin paytaxtı Osloda bir araya gələrək Rusiya–Ukrayna müharibəsindəki mövcud durumu və rəsmi Kiyevə hərtərəfli yardım yollarını müzakirə ediblər. Xəbəri "Reuters" agentliyi yayıb.**

Xəbərdə deyilir ki, danışıqlar zamanı Şimali Avropanın yuxarıda adları çəkilən 5 ölkəsinin liderləri Rusiya işğalına qarşı mübarizədə Ukraynaya "nə qədər lazımdırsa" dəstək verməyə hazır olduqlarını bildiriblər.

Müzakirələrdə Ukrayna Prezidenti Volodimir Zelenski də iştirak edib. O, ABŞ-dan qayıdan kimi "Köhnə qitə"nin şimalında yerləşən ölkələrin liderləri ilə Kiyevə dəstəyin genişləndirilməsi ilə bağlı danışıqlar aparmaq üçün Norveçə gedib.

Xatırladaq ki, Rusiyanın Ukraynaya hücumundan keçən təqribən 20 ay ərzində Danimarka, İslandiya, Norveç, Finlandiya və İsveç Ukraynaya ümumilikdə təxminən, 11 milyard avro həcmində yardım edib. Bu ölkələr Osloda yenidən Kiyevə geniş hərbi, iqtisadi və humanitar dəstək verməyə hazır olduqlarını bildiriblər.

Bu barədə beş dövlətin birgə bəyanatında deyilib. Sənəddə "Rusiya təcavüzünü dayandırmalı, qoşunlarını dərhal və qeyd-şərtsiz Ukrayna ərazisindən çıxarmalıdır", – deyə vurğulanıb.

Danimarkanın Baş naziri M.Frederiksen bildirib ki, onun hökuməti bu həftə parlamentə Ukraynaya 1 milyard avro (1,08 milyard dollar) dəyərində yeni yardım paketini təqdim edəcək. Norveçin Baş naziri C.Q. Store ölkəsinin Ukraynaya 3 milyard kron (273 milyon dollar) ayıracağını bəyan edib. Bu vəsait daha əvvəl Norveç Parlamenti tərəfindən 5 il ərzində 75 milyard kronla razılaşdırılmış paketin bir hissəsidir.

Osloda Şimali Avropa dövlətləri liderləri ilə birgə mətbuat konfransında Prezident V.Zelenski "Bu gün biz minlərlə ukraynalının həyatını xilas edə biləcək, həmçinin təcavüzkara təzyiqi artıra biləcək konkret şeylər haqqında danışdıq və danışacağıq" deyib. Onun sözlərinə görə, hazırda Kiyevin prioriteti Ukraynanın hava hücumundan müdafiəsini gücləndirməkdir.

***M.HACIXANLI***
***XQ***

# Bolqarıstanlı nazir Bakıda



**Azərbaycanda səfərdə olan Bolqarıstanın gənclər və idman naziri Dimitar İliev Bakıda bir sıra idman qurğularının fəaliyyəti ilə tanış olub.**

Bolqarıstanlı nazir Bakı Su İdmanı Sarayı və Heydər Əliyev adına İdman-Konsert Kompleksində buz meydançası ilə tanış olub. O, buradakı şərait, qarşıda duran işlər barədə mütəxəssislərlə fikir mübadiləsi edib. Həmçinin Milli Gimnastika Arenasına da baxış keçirilib.

Bakı Konqres Mərkəzində ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan "Azərbaycan Könüllülərinin VI Həmrəylik Forumu"na da qonaq olan nazir, könüllülərin mükafatlandırılmasında iştirak edib. D.İliev Bakı Slavyan Universitetində isə tələbələrlə görüşüb.

Günün sonunda Bakı Gənclər Mərkəzinin fəaliyyəti ilə tanış olan qonağa burada fəaliyyət göstərən klublar, infrastruktur imkanları, gənclərin şəxsi inkişafı və asudə vaxtının təşkili üçün keçirilən layihələr barədə məlumat verilib.

***L.AZAD***
***XQ***



# Qardaş Türkiyənin kosmonavtı da olacaq

**Türkiyənin ilk dəfə kosmosa göndərəcəyi kosmonavtın kimliyi və səfərin tarixi açıqlanıb. Bu barədə qardaş ölkənin sənaye və texnologiya naziri Mehmet Fatih Kacir bildirib.**

Nazir qeyd edib ki, kosmosa ilk səfər edəcək şəxs Alper Gezerdir, o, 2024-cü il yanvarın 9-da kosmosa gedəcək. Türk kosmonavt Beynəlxalq Kosmik Stansiyada fəaliyyət göstərəcək, orada İspaniya, İtaliya və İsveçdən olan kosmonavtlarla birgə çalışacaq.

Kosmosa səfər 14 gün davam edəcək, 13 fərqli təcrübə yerinə yetiriləcək.

***XQ***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
tabeliyindəki idarələr üçün mismar, bolt, qayka, sancaq, şrup, şayba və dəmir kələpçənin satın alınması məqsədilə
MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər.

Müraciət üçün son müddət 2023-cü il dekabrın 20-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: (012) 404-37-00, daxili – 1047.

Ünvan – Bakı, M.Useynov küçəsi 2.

İDMAN

# Çövkən daha tarix deyil

## Bu gün isə Prezident Kuboku turniri start götürür

**Atüstü milli oyunlarımızın qorunub saxlanılması, tarixi atçılıq ənənələrimizin bərpası, ölkəmizdə atçılıq turizminin təbliği, həmçinin gənc nəsildə bu idman növlərinə maraq oyadılması məqsədi ilə artıq 10-cu ildir ki, Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) təşkilatçılığı ilə çövkən üzrə Prezident Kuboku yarışı keçirilir.**



Dekabrın 14-də "Sərhədçi" İdman Mərkəzində turnirin püşkatma mərasimi və mətbuat konfransı təşkil edilidi.

Tədbirdə çıxış edən ARAF-ın baş katibi Bəhruz Nəbiyev milli atüstü oyunlarımızla bağlı məlumat verdi. O qeyd etdi ki, çövkən oyununa maraq getdikcə artır:

– 2014-cü ildən başlayaraq Prezident Kuboku turniri keçirilir. Builki yarış 10-cu – yubiley turniridir. Ötən 9 yarışda 6 dəfə "Sərhədçi", hərəyə 1 dəfə "Omar", "Buta Golden" və "Polad" komandaları qalib olublar. Təqdirəlayiq haldır ki, Azərbaycanda ta qədimdən mövcud olmuş çövkən nəinki öz aktuallığını itirmədən zəmanəmizə qədər gəlib çatıb, həm də gündən-günə daha da populyarlaşır. Həqiqətən maraqlı olan bu yarışların bütün dünyada özünə tezliklə daha çox pərəstişkarlar qazanacağına inanırıq.

Bəhruz Nəbiyev bildirdi ki, federasiya bu ilin noyabrında Binə Atçılıq Mərkəzində Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Milli Atçılıq Festivalı – dünya çempionatını keçirib. O, ölkəmizdə atçılığın inkişafı, dünya şöhrətli idmançıların yetişdirilməsi, gənclərimizdə bu idman növünə maraq oyatmaq, həmçinin "Qarabağ" və "Dilbaz" milli at cinslərinin qorunması və təbliğatı baxımından tədbirin əhəmiyyətini qeyd etdi. Vurğuladı ki, bu, bir başlanğıcdır və gələcəkdə belə nüfuzlu yarışların təşkili davam edəcək. Eyni zamanda, növbəti beynəlxalq yarışlarda daha çox əcnəbi komandanın qatılması ilə bağlı işlər görüləcək.

Mərasimdə o da bildirildi ki, çövkən oyununun qaydaları nəzərdən keçirilib və bir sıra dəyişikliklər edilib. Meydanın ölçülərinə uyğun komandada oyunçuların sayı 5-dən 4-ə endirilib. Bu da qapalı – ölçüsü kiçik olan meydanlarda oyunların daha maraqlı keçirilməsinə yönəlib. Bundan başqa, ilk dəfə "Şirvan", "Zəfər" və "Embawood" komandaları da ənənəvi yarışda iştirak edəcəklər.

Onu da qeyd edək ki, Prezident Kubokunda yalnız milli cins atlar yarışacaqlar. Püşkatmanın nəticəsinə əsasən, 8 komanda hərəsində dörd olmaqla iki qrupa bölünüb. A qrupunda "Sərhədçi-Qarabağ", "Polad", "Köhlən" və "Şirvan" klubları, B qrupunda isə "Sərhədçi-Dilbaz", "Omar", "Zəfər" və "Embawood" kollektivləri yer alıblar.



Bu gün Binə Atçılıq Mərkəzinin qapalı manejində turnirə start veriləcək. Dekabrın 15, 17 və 19-da qrup oyunları, dekabrın 21-i yarımfinal və dekabrın 24-ündə isə turnirin finalı baş tutacaq. Qrup oyunlarının nəticələrinə əsasən, hər iki qrupu 1 və 2-ci yerlərdə bitirən komandalar yarımfinala yüksələcək. Oyun günləri yarışlar saat 10:00-da start götürəcək.

***Leyla QURBANOVA***
***XQ***

# Futbolçulara antidopinq təlimi



**Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) dopinqlə mübarizəyə istiqamətlənmiş maarifləndirmə tədbirləri davam etdirir.**

Bu dəfə AMADA "Qəbələ Futbol Klubu" Akademiyasının U-15, U-16, U-17 və U-19 komandaları üçün antidopinq maarifləndirmə seminarı təşkil edib. Tədbirdə dopinq nəzarəti ilə bağlı əsas mövzular müzakirə edilib. Nümunələrin toplanmasından laboratoriya təhlilinədək dopinq nəzarəti prosesinin bütün aspektləri idmançıların diqqətinə çatdırılmaqla yanaşı, onlara 11 antidopinq qayda pozuntusu haqqında da ətraflı məlumat verilib. Həmçinin idmançıların hüquq və öhdəlikləri ilə bağlı önəmli məlumatlar paylaşılıb, dürüst idman mühitini qorumaq üçün məsuliyyət və öhdəlikləri vurğulanıb.

AMADA-nın təhsil proqramları üzrə meneceri Qüdrət Səfərov maarifləndirmə tədbirlərinin əsas məqsədinin idman ictimaiyyətinə və ümumiyyətlə cəmiyyətə dopinqın insan sağlamlığı üçün zərərləri və təhlükələri haqqında geniş məlumat vermək, həmçinin idmanda dürüstlüyü və ədaləti qorumaq olduğunu bildirib.

AMADA antidopinq sahəsində təhsil və maarifləndirmə proqramlarını Ümumdünya Antidopinq Məcəlləsinin "Təhsil üzrə Beynəlxaq Standart"ına uyğun olaraq həyata keçirir. Standartın tələblərinə əsasən təhsil və maarifləndirmə uyğunlaşdırılmış proqramlar əsasında həyata keçirilir. Təlimlər çərçivəsində narkotiklərlə mübarizə mövzusu xüsusi yer tutur. İdmançılara və idmançıların köməkçi heyətinə narkotiklərin zərərləri, onun törətdiyi fəsadları haqqında məlumatlar verilir, narkotik və digər zərərli vərdişlərdən uzaq durmaq, sağlam həyat tərzi üçün idmanın əhəmiyyəti vurğulanır.

***L.QURBANOVA***
***XQ***

# Qəzzada ölənlərin sayı 18 min 787 nəfərə çatıb

**Ağır zorakılıqlarla müşayiət olunan Həmas-İsrail mühasibəsi davam edir. Ən son məlumatlara görə, Qəzza zolağında ölən fələstinlilərin sayı 18 min 787 nəfərə çatıb. Bu barədə anklavın Səhiyyə Nazirliyi məlumat yayıb.**

Qeyd olunub ki, İsrail ordusunun 7 oktyabrdan indiyə qədər Qəzzada davam edən hərbi əməliyyatları nəticəsində ölənlərin, təxminən, 70 faizi qadın və uşaqlardır.

Həmçinin əlavə olunub ki, indiyə qədər 6 minə yaxın insan itkin düşüb, 50 min 897 nəfər müxtəlif dərəcəli xəsarətlər alıb və yaralananların böyük əksəriyyətinin vəziyyəti ağır qiymətləndirilir.

Xatırladaq ki, HAMAS təşkilatının İsrail ərazisinə raket zərbələri endirməsinə cavab olaraq 7 oktyabrda İsrail ordusu "Dəmir qılınclar" ("Iron swords") əməliyyatına başladığını bəyan edib, hərbi əməliyyatlar 69-cu gündür ki, davam edir.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 274 (30390) 15 dekabr 2023-cü il, cümə

# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

### *2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*




**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

Ölkəmizdə turizm

## Rus qonaqlar çoxalır

**Azərbaycan rusiyalıların ən çox səyahət etdiyi ölkələr beşliyinə daxil olub.**



“Tutu.ru” səyahətlər servisinin mütəxəssisləri rusiyalıların 2023-cü ildə hansı şəhərlərə və ölkələrə səyahət etdiklərini araşdırıblar.

Ekspertlərin rəyinə görə, bu il Rusiya əhalisinin səyahət etdiyi xarici ölkələr sırasında Azərbaycan da var. Siyahıya Azərbaycanla yanaşı, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Özbəkistan, Qırğızıstan və Tacikistan daxildir.

Daxili uçuşlara gəldikdə isə daha çox aviabilet Moskva, Soçi və Sankt-Peterburqa alınıb.

***XQ***

İdman xəbərləri

## “Qarabağ”ın Avroliqa yürüşü



**Qurban Qurbanovun komandası Bakıda Tofiq Bəhramov adına Respublika stadionunda İsveçin “Hakken” komandasını qəbul edib.**

Rəqib komandanın 2:1 hesabı ilə məğlub olduğu bu görüş “Qarabağ” və Azərbaycan futbolu üçün tarixi nəticə ilə yadda qalıb. Belə ki, qələbə sayəsində 2-ci yerin sahibi kimi qrupdan çıxan Ağdam klubu Azərbaycan futbolu tarixində ilk dəfə Avropa Liqasının pley-offuna yüksəlib.

## Ağırlıqqaldıranımızın Doha qələbəsi




**Azərbaycan ağırlıqqaldıranı Dadaş Dadaşbəyli “Paris-2024” Yay Olimpiya Oyunlarına lisenziya xarakterli turnirdə uğurla çıxış edib.**

Qətərin paytaxtı Dohada keçirilən Beynəlxalq Ağırlıqqaldırma Federasiyasının II Qran-Pri yarışında 109 kiloqram çəki dərəcəsində çıxış edən atlet birdən qaldırmada 176 kiloqramı ram edib və bu hərəkətdə qızıl medal qazanıb. O, təkanla qaldırma hərəkətində isə 212 kiloqramı başı üzərinə qaldıraraq gümüş medala yiyələnib. Toplam 388 (176+212) kiloqram nəticə göstərən D. Dadaşbəyli yekun sıralamada da hamını qabaqlayıb və öz çəkisində çempion olub.

## “İdman inzibatçılıq kursu”



**Milli Olimpiya Komitəsinin (MOK) təşkilatçılığı və Beynəlxalq Olimpiya Komitəsinin Olimpiya Həmrəyliyi Fondunun dəstəyi ilə “İdman inzibatçılığı kursu” keçirilib.**

Qurumun inzibati binasında təşkil olunan kursun iştirakçıları Bədən Tərbiyəsi və İdman Akademiyasının SABAH qruplarının tələbələri olub. Ümumilikdə 40 tələbənin iştirak etdiyi tədbirdə əsas məqsəd tələbələrin inzibatçılıq üzrə bilik və bacarıqlarını artırmaq olub.

Kursda antik və müasir Olimpiadaların tarixi, kommunikasiya, Olimpiya Oyunlarının təşkil olunması, təhlükəsiz idman, Olimpiya marketinqi və digər mövzularda təqdimatlar edilib, iştirakçılar ilə bu mövzularda fikir mübadiləsi aparılıb.

Sonda iştirakçılara Beynəlxalq Olimpiya Komitəsinin sertifikatları verilib.

***Leyla SABİRQIZI***
***XQ***

Teatr

## “Mən öləndə ağlama” Tbilisi səhnəsində

**Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrında gənc azərbaycanlı dramaturq Pərvin Nurəliyevanın “Mən öləndə ağlama” əsərinin motivləri əsasında hazırlanmış tamaşanın təqdimatı olub.**



Psixoloji dram janrında olan tamaşanın süjet xəttini Leyla adlı bir xanımın ağır həyatı təşkil edir. Əsərin müəllifi Pərvin Nurəliyeva deyib ki, dünyanın hər yerində qadın problemləri aktual olaraq qalır. Qadınların həyatda üzləşdiyi problemlər, keçirdiyi çətinliklər olduqca aktual məsələlərdir. Onun sözlərinə görə, əsər bir neçə dəfə festivallarda qalib olub.

Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının bədii rəhbəri Turqay Vəlizadə bildirib ki, yaradıcı kollektiv tamaşanın hazırlanmasına 2 ay sərf edib. Tamaşa qastrol səfərlərində də nümayiş etdiriləcək. Hazırda aktyorlar tamaşanı gürcü və rus dillərində də hazırlayırlar.

Qeyd edək ki, tamaşada teatrın aktyorları Nərmin Həsənova, Telman İsfahanlı, Mədinə Həsənova və Fuad İsfahanlı rol alıblar. Tamaşanın rəssamı Nino Kitiadır.

***XQ***

Texnologiya

**Amerikalı milyarder İlon Mask müxtəlif tapşırıqları yerinə yetirə biləcək humanoid (insanabənzər) robotun yeni nəsli - “Optimus Gen 2”-ni təqdim edib. Robotun yeni versiyası “Tesla” tərəfindən hazırlanmış sensorlarla təchiz edilib.**

## Maskın yeni insanabənzər robotu



Yeni robot əvvəlki versiyadan 30 faiz daha sürətli yeriyə bilməsi, həmçinin çəkisinin nisbətən az – 10 kiloqrama yaxın olması ilə fərqlənir.

“Optimus Gen 2”-nin barmaqları taktil (toxunma) hissinə malikdir. Belə ki, bu robot zərif quruluşlu əşyaları incə toxunuşlarla götürə bilir. “Tesla” şirkəti yaxın vaxtlarda robotu öz istehsalat əməliyyatlarında istifadə etməyi də planlaşdırır.

***FİDAN***
***XQ***

Ekologiya

## Suyun nanotəmizlənməsi

**Suyu bir neçə dəqiqə ərzində zəhərli arsendən təmizləmək üçün nanokompozit hazırlanıb. Rusiya KİV-i xəbər verir ki, bu sınağı Tomsk Politexnik Universitetinin (TPU) alimləri həyata keçiriblər.**




Tədqiqatın ən mühüm nəticəsi yüksək adsorbsiya dərəcəsidir. $Fe_3O_4$/rGO nanokompoziti cəmi bir dəqiqə ərzində arsen ionlarının 81 faizini çıxara bilib. Bu təsirli nailiyyət suda ağır metallarla çirklənmə problemini əvvəllər əlçatmaz görünən miqyasda həll etmək perspektivi açır.

Yeni metod ekologiyadan tutmuş müasir mikroelektronika texnologiyalarına qədər müxtəlif sənaye sahələrində $Fe_3O_4$/rGO nanokompozitinin istifadəsi üçün yeni üfüqlər açır.

Araşdırma su ehtiyatlarının təmizlənməsi və yüksək texnologiyalı sənaye sektorlarına istifadəsi üçün ekoloji cəhətdən təmiz və effektiv materialların hazırlanmasında mühüm addımdır.

***Anar TURAN***
***XQ***

Hava

## Yağış yağmayacaq, duman isə olacaq



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən dekabrın 15-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Səhər bəzi yerlərdə zəif duman, az çiskin olacaq. Şimal-qərb küləyi əsəcək. Gecə 4-6°, gündüz 7-10° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 767 mm civə sütunu olacaq, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-6°, gündüz 7-12° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacaq.

***Q.QASIMOV***
***XQ***

Sağlamlıq

## 3 dost: sarıkök, zəncəfil və istiot

**Rusiyalı həkim Andrey Zolotarev bildirib ki, bioloji aktiv maddələrlə zəngin zəncəfil, sarıkök və istiotu qış fəslində qəbul etmək həmçinin digər qidalara qatıb yemək orqanizmə çox faydalıdır.**



Ədviyyatlar arasında sarıkökü immun sistemi gücləndirən, bakteriya və viruslardan qoruyan unikal maddə hesab edən həkim deyib: “Kurkumində (sarıkök) olan antioksidantlar iltihab və xərçəng əleyhinə təsirə malikdir”.

Qış aylarında immunitet möhkəmləndirici içki reseptini tövsiyə edən A.Zolotarev bildirib: “1 stəkan süd qazanda qaynar hala düşəndə, ona çay qaşığının yarısı qədər sarıkök, bir ədəd qara istiot dənəsi, çay qaşığının ucunda üyüdülmüş zəncəfil əlavə edilib qarışdırılır.

Qarışım qaynamağa başlayan kimi süd dərhal odun üstündən götürülüb süzülür və isti halda içilir.

İksirə zövqə görə bal qatmaq olar, amma onu qarışığı içəndə əlavə etmək məsləhətdir.

Bu ədviyyatlar qatılan süd orqanizmdə iltihabı azaldır, öskürək, bronxit və boğaz ağrısına kömək edir. Ən başlıcası, immuniteti zəifləyən insanlara xeyli faydası var”.

***Z.HÜSEYNLİ***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

| | |
|---|---|
| İNDEKS | 0282 |
| TİRAJ | 4732 |
| SİFARİŞ | 3276 |
| QİYMƏTİ | 40 qəpik |

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır
00:00